**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT RƏSSAMLIQ AKADEMİYASI**

*Əlyazması hüququnda*

**İMAŞ ADIŞİRİN OĞLU HACIYEV**

# AZƏRBAYCAN SƏNAYE DİZAYNININ İNKİŞAF MƏRHƏLƏLƏRİ

İxtisas: 6217.01 – Texniki estetika və dizayn

sənətşünaslıq üzrə elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2016**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunun “Heraldika və dizayn” şöbəsində yerinə yetirilmisdir.

**Rəsmi opponentlər:** **ELÇİN TOFİQ oğlu ƏLİYEV**
sənətşünaslıq üzrə elmlər doktoru

**RÖYA SEYFƏDDİN qızı TAĞIYEVA**
sənətşünaslıq üzrə elmlər doktoru, professor

**ARİF MÖHÜBƏLİ oğlu ƏZİZ**
əməkdar incəsənət xadimi, professor

**Aparıcı təşkilat:** **Azərbaycan Memarlıq və İnşaat Universiteti**

Müdafiə **17 mart 2016-cı il saat 11:00-da** Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində yaradılmış FD.02.191 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Az 1029, Bakı şəh., Heydər Əliyev prospekti 26, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası.

Dissertasiya ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat **“17” fevral 2016-cı ildə** göndərilmişdir.

**FD.02.191 Dissertasiya Şurasının**
**elmi katibi, sənətşünaslıq**
**üzrə fəlsəfə doktoru:** **X.Z.Əsgərova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

Sintetik təbiətinə görə dizayn universal yaradıcılıq sahəsi kimi erqonomik və estetik tələblər zəminində *insan - əşya - maşın - mühit* sistemlərinin təşkili problemlərinin elmi-nəzəri kontekstdə öyrənilməsini, həmçinin bu problemlərin praktik həlli imkanlarını reallaşdırır.

Müasir dövrdə "dizayn" anlayışı bütöv bir sistem şəklində bu sahəyə aid olan müxtəlif istiqamətləri əhatə edərək özündə cəmləşdirir. Və o, incəsənətin çoxsahəli növü olmaqla yanaşı, həmçinin elm və təhsil sistemində də mühüm əhəmiyyət kəsb edərək öz yerini tapmışdır. Ümumilikdə, sənətşünaslıq elmlər sisteminin tərkib hissəsinə daxil olan dizaynın həm yaradıcılıq, həm də elm sahəsi kimi genişlənməsinə və inkişafına əsasən bu sahədə təsnifatlaşdırmanın aparılması zərurəti meydana çıxmışdır.

Müxtəlif müəlliflər dizayn yaradıcılığını ayrı-ayrı sahələr üzrə təsnifatlaşdıraraq onun konkret istiqamətlərini müəyyənləşdirməyə çalışırlar. Belə təsnifatlaşdırmaya görə dizaynın əsas və geniş sahələrindən biri sənaye dizaynı hesab edilir. Sənaye dizaynı– ümumdizaynın müasir şəraitdə xüsusi inkişaf etmiş növlərindən biridir. Bu sahəyə hər növdən olan sənaye mallarının: tekstil, geyim, məişət ləvazimatı və avadanlıqlarının, o cümlədən mebel dəstləri, əmək alətləri və s. nümunələrin çoxçeşidli və seriyalı fabrik istehsalı aiddir. Başqa sözlə, sənaye dizaynı qəbul edilmiş beynəlxalq standartlara əsasən, istehlak mallarının ən müasir texnoloji proseslərdə çoxtirajlı istehsalını reallaşdırır. Burada başlıca məsələ məhsulların utilitar-funksional göstəriciləri və estetik keyfiyyətinin yüksək səviyyədə təmin edilməsidir. Bundan başqa, sənaye dizaynı əməyin və iş şəraitinin optimallaşdırılması üçün *insan - əşya - maşın - mühit* sistemlərinin erqonomik və estetik cəhətdən təşkili məsələlərini də həyata keçirir. Bu istiqamətdə mahiyyətcə dizaynın nəzəri məsələləri ilə daha çox əlaqədar olan "texniki estetika", "istehsalat estetikası" terminlərindən istifadə edilir.

İncəsənətin digər sahələrindən fərqli olaraq, dizayn yaradıcılığının inkişafı məhz sənayeləşdirmənin sürətləndiyi bir şəraitdə reallaşmışdır. Qərbi Avropada sənaye inqilabının baş verdiyi dövr və kustar sənətkarlıq fəaliyyətindən iri maşın sənayesi istehsalına keçid İngiltərə, Fransa, Almaniya kimi tərəqqidə olan ölkələrdə texniki estetikanın, sənaye incəsənətinin – sənaye dizaynının formalaşması və inkişafına təkan verdi və həmin sahədə əldə edilən yaradıcılıq təcrübələri tədricən dünyanın digər

dövlətlərinə də sirayət etməyə, keçməyə başladı.

Vaxtilə Qərbi Avropa ölkələrində kustar sənətkarlıqdan, əl əməyinə əsaslanan istehsaldan tədricən imtina edilməsi, sənayenin yeni tələblərə uyğunlaşdırılaraq təşkili texniki tərəqqinin inkişafına təkan verdi və XVIII əsrin sonu – XIX əsrin əvvəlləri həmin ölkələrdə tarixi sənaye çevrilişini reallaşdırmış oldu. Məhz həmin dövrdə manufaktura istehsalı iri maşın sənayesi ilə əvəz edildi ki, bu da çoxçeşidli məmulatların daha keyfiyyətli və kütləvi istehsalına əlverişli şərait yaratdı.

Sənaye çevrilişi – sənaye inqilabı elmi-ixtisas ədəbiyyatlarında, əsasən, üç mərhələ üzrə müəyyənləşdirilir: tekstil istehsalında maşınların meydana gəlməsi; buxar maşınının kəşfi; maşınqayırmada maşınların tətbiqi[1]

Sənayedə baş verən bu cür köklü dəyişikliklər, aparılan yeni islahatlar öz növbəsində dizayn-layihələndirmədə yeni prinsiplərin, metodların və nəzəriyyələrin meydana gəlməsinə səbəb oldu.

Optimal işçi mühiti sistemlərinin təşkili, eləcə də müxtəlif qəbildən olan istehlak mallarının layihələndirilməsi və kütləvi istehsalının reallaşdırılmasında dizayn özünü təsdiq edərək ciddi yaradıcılıq sahəsinə çevrildi.

Qərbi Avropa ölkələrində sənaye inqilabından sonra təşəkkül tapan dizayn müəyyən vaxt ərzində, tədricən dünyanın digər ölkələrində də ciddi yaradıcılıq sahəsinə çevrildi. Bu yaradıcılıq sahəsi Azərbaycanda da sənaye ilə incəsənətin üzvi əlaqəsinin yaradılmasını və istehsalatda tətbiqi imkanlarını reallaşdırmış oldu.

**Tədqiqatın aktuallığı.** Azərbaycanda müxtəlif elm sahələrində olduğu kimi, sənətşünaslıq elmində də müəyyən istiqamətlərdə mövcud olan problematik məsələlər, o cümlədən mövzular bu və ya digər səviyyədə təhlil edilsə də, lakin indiyə qədər geniş əhatə dairəsində tədqiqat obyektinə çevrilməmiş və yetərincə araşdırılmamışdır. Təbii ki, bu da obyektiv və subyektiv səbəblərdən – zaman və məkan şəraitində ictimai həyatın sosial-mədəni, elmi-texniki inkişaf səviyyəsindən (problemlər həm də hər hansı inkişaf səviyyəsindən asılı olaraq yaranır), eyni zamanda, fərdi baxışların, estetik dünyagörüşünün əhatə dairəsindən asılı olmuşdur.

Qeyd etməliyik ki, Azərbaycanda sənətşünaslıq elmində tədqiqata nisbətən az cəlb edilmiş sahələrdən biri texniki estetika – ümumdizaynın

---

[1]Михайлов С.М., История дизайна. Том I. Москва, «Союз дизайнеров России», 2000,с. 42

əsas tərkib hissələrindən biri olan sənaye dizaynıdır. Bu sahə həm sovet dövründə, həm də müstəqillik illərində respublikanın ictimai-mədəni həyatında, bötövlukdə sosial-mədəni sferanın inkişafında əhəmmiyyətli rol oynamış, müasir dövrümüzdə texniki mədəniyyətin, sosial-iqtisadi və mədəni inkişafın vacib tərkib hissəsinə çevrilmişdir.

Əlbəttə, ümumilikdə götürdükdə, dizayn sahəsində əvvəlki illərdən fərqli olaraq, son onilliklərdə müxtəlif səpkili məqalələr, konfrans materialları, eləcə də kitab və digər vəsaitlər nəşr edilmişdir. Bunlarla yanaşı, 2000-ci ildən etibarən dizayn sahəsində elmi-tədqiqat işlərinin yazılmasının vüsət alması və müdafiə edilməsi də təqdirəlayiq fəaliyyət kimi qiymətləndirilə bilər. Lakin sadalanan bu nailiyyətlərin sənətşünaslığın, o cümlədən Azərbaycan elminin digər sahələri ilə müqayisədə tam yetərincə olduğunu söyləmək olmazdı.

**Mövzunun işlənmə dərəcəsi.** Dizaynın müxtəlif növlərindən fərqli olaraq, sənaye dizaynı respublikada ictimai həyatın daha geniş tələbat sahələrini əhatə etmiş, bədii istehsalın ayrı-ayrı istiqamətləri üzrə davamlı şəkildə təkmilləşərək, inkişafda olmuşdur..

Sovet dövlətinin yarandığı ilk illərdə peşəkar ustalar kiçik istehsal gücünə malik olan, müxtəlif çeşidli mallar hazırlayan müəssisələrdə, kooperativlərdə birləşirdi. Müəyyən vaxtdan sonra respublikada güclü istehsal bazasının yaradılması müxtəlif çeşidli məhsulların istehsalını təmin etdi. Həmin dövrdə Bakı Zərgərlik Fabriki, Keşlə Saxsı Qablar Zavodu, Şəki İpək Kombinatı, Bakı Şüşə Zavodu, Suvenir Fabriki, "Azərxalça"nın kombinatları, Mebel Fabriki və digər müəssisələr əhalinin təlabatını nəzərə alaraq böyük miqyasda bədii məmulatlar istehsal etmişlər. Bu məhsullar həm respublikada, həm də xarici ölkələrdə satılırdı.[2]

XX əsrin ortalarında respublikada bədii sənaye üzrə istehsal əvvəlki dövrlərlə müqayisədə, həm əhatə dairəsinə, həm də istehsal prosesində mütərəqqi texnologiyaların tətbiqinə görə daha da məhsuldar olmuşdur.

Bədii istehsal üzrə müxtəlif çeşidli məmulatlar – zərgərlik nümunələri, xalçaçılıq məmulatları, tekstil malları, çini-saxsı məmulatları, dəri-ayaqqabı nümunələri, mebel emalı və s. istehsal nümunələri keçmiş İttifaq səviyyəsində, həmçinin ümumdünya miqyasında müxtəlif xarici ölkələrdə təşkil olunan sərgi və yarmakalarda müvəffəqiyyətlə nümayiş etdirilmişdir. Respublikada yeni iqtisadi

---

[2]Тарланов М. Декоративно-прикладное искусство Азербайджана. Баку, «Азернешр», 1968,с. 5

şəraitdə də müxtəlif çeşidli məhsulların istehsalında bu ənənələr müəyyən səviyyədə davam etdirilmişdir. Həmin nailiyyətlər, eyni zamanda onların təbliğ edilməsi haqqında materiallar M.Tərlanov "Azərbaycan dekorativ-tətbiqi sənəti" (B.:1968), O.Salamov "Kirovabad" (B.:1973), C.Müciri "Azərbaycan xalçaçılığı" (Azərbaycan xalçaçılığının texnoloji üsulları) (B.:1977), S.D.Əsədova "XIX-XX əsrlərdə Azərbaycan zərgərlik incəsənəti" (B.:1978), K.Kərimov, R.Əfəndiyev, N.Rzayev, N.Həbibov "Azərbaycan incəsənəti" (B.:1992), "Müasir Azərbaycan memarlığı və incəsənəti", K.Kərimovun və Ş.Fətullayevin redaktəsi ilə (B.:1992), R.Əfəndi, T.Əfəndiyev "Azərbaycan bəzək sənəti" (B.:2002), Ə.Ə.Salamzadə "Dizayn və informasiya" (B.:2006), R.Əfəndi, T.Əfəndiyev "Azərbaycan incəsənəti dünya muzeylərində" (B.: 2009), və s. nəşrlərdə, eləcə də E.Əliyev, F.Abdullayev, L.Abdullayeva, A.Nurəliyeva, İ.Özmaden, G.Əsgərəlizadənin tədqiqat işlərində qismən yer almışdır. Bu nəşrlərdən dissertasiyada elmi mənbə kimi istifadə edilmişdir.

Bununla belə, qeyd etmək lazımdır ki, respublikada sənaye dizaynının təşəkkülü və müxtəlif dövrlər üzrə inkişaf istiqamətlərinə dair əsaslı və sistemli şəkildə araşdırmalar aparılmamış, sənətşünaslıq baxımından geniş təhlil və ümumiləşdirməni özündə əks etdirən elmi əsərlər yazılmamışdır.

**Tədqiqatın məqsədi və vəzifələri.**Tədqiqatın başlıca məqsədi texniki estetika və dizaynın, Azərbaycan sənaye dizaynının formalaşması və inkişaf dövrlərinin, həmçinin müxtəlif istehsal sahələrinin fəaliyyəti ilə əlaqədar əsas təmayüllərinin müəyyənləşdirilməsindən ibarətdir. Bu məqsədə müvafiq olaraq tədqiqatın qarşısına aşağıdakı vəzifələr qoyulmuş və onların həllinə səy göstərilmişdir:

- Qərbi Avropa ölkələrində texniki estetika və dizaynın tarixi təşəkkülünü araşdırmaq, dünyanın digər ölkələrində, o cümlədən Azərbaycanda dizayn yaradıcılığının formalaşması və inkişafına onun təsirini müəyyən etmək;
- dizaynın elmi əsası kimi erqonomikanın problemlərini araşdırmaq;
- dizayn yaradıcılığında estetik amillərin rolunu xarakterizə etmək;
- bədii-texniki layihələndirmənin nəzəri və metodoloji problemlərini nəzərdən keçirmək;
- Azərbaycanda sənaye dizaynının tarixi təşəkkülü, inkişaf dövrləri və təmayüllərini müəyyən etmək;

- Azərbaycanda bədii istehsal sahəsində fəaliyyət göstərmiş müəssisələrin istehsal imkanlarını, həmçinin hazırlanan məhsulların müxtəlif xüsusiyyətlərini təhlil etmək;
- əşya və avadanlıqların bədii-texniki layihələndirilməsində və ümumiyyətlə, respublikada bədii-konstruksiyaetmənin inkişafında müstəsna rol oynamış Xüsusi Bədii Konstruksiyaetmə Bürosunun (XBKB) fəaliyyətini mərhələli təhlil etmək;
- Ümumittifaq Texniki Estetika Elmi-Tədqiqat İnstitutunun (ÜTEETİ) Azərbaycan filialının çoxşaxəli fəaliyyətini araşdırmaq;
- müstəqillik illərində, yeni iqtisadi şəraitə keçidlə əlaqədar özəl sektorun inkişafı kontekstində müxtəlif istehsal müəssisələrinin fəaliyyətini araşdırmaq;
- müasir dövrdə həm xarici, həm də yerli istehsala aid olan istehlak mallarında məzmun və forma xüsusiyyətlərini, erqonomik və estetik amilləri kompleks şəkildə təhlil etmək, təklif və tövsiyələr vermək;
- dizaynın sənət, elm və təhsil sistemində yeri və inkişaf perspektivlərini müəyyənləşdirmək;
- dizayn yaradıcılığı və təhsilində inteqrasiya problemini təhlil etmək, bu aspektdə təklif və tövsiyələr hazırlamaq.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycanda müxtəlif dövrlərdə mövcud olmuş bədii istehsal sahələrinin fəaliyyəti sayəsində kütləvi şəkildə buraxılan bədii məmulatlar, məişət əşya və avadanlıqları, eləcə də yeni iqtisadi şəraitdə müasir texnoloji proseslərdə istehsal edilən çoxçeşidli istehlak malları təşkil edir.

Tədqiqatın predmeti kimi Azərbaycan sənaye dizaynının tarixi təşəkkülü, formalaşması, inkişaf dövrləri və istiqamətləri nəzərdən keçirilir.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Tədqiq edilən mövzu üzrə dizaynın xarici və milli zəmində tarixi təcrübəsi xarici və yerli mütəxəsislərin, həmçinin sənətşünaslığın elmi-nəzəri nailiyyətləri əsas götürülmüşdür.

Dissertasiyada müxtəlif mədəni-iqtisadi dövrlər üzrə istehsal sahələrinin fəaliyyəti və inkişafı nəzərdən keçirilir. Sənayenin müxtəlif sahələrində istehsal prosesində tarixi köklərə söykənən bədii ənənələrin, texnologiyaların, həmçinin modern yanaşma imkanlarının öyrənilməsi tarixi-müqayisəli təhlil prinsipi əsasında araşdırılmışdır.

Tədqiqat işində tipoloji yanaşma metodundan çıxış edərək Azərbaycan sənaye dizaynının inkişaf mərhələləri və təmayüllərinin təsnifatı verilmişdir.

Bunlarla yanaşı, istehlak mallarında erqonomik amillərin, estetik keyfiyyətin, sosial-iqtisadi göstəricilərin müəyyən edilməsi ilə əlaqədar olaraq, müxtəlif elmlərin inteqrasiyasına əsaslanan kompleks yanaşma prinsipindən də istifadə olunmuşdur.

**Tədqiqatın əhatə dairəsi** Azərbaycan sənaye dizaynının XX əsrin əvvəllərindən müasir dövrə qədərki inkişafını əhatə edir.

**Tədqiqatın elmi yeniliyi** onunla şərtlənir ki, Azərbaycan sənaye dizaynının təşəkkülü və inkişaf tarixi geniş müstəvidə sistemli və kompleks şəkildə ilk dəfə bu dissertasiyada araşdırılır:

- Sinkretik yaradıcılıq sahəsi olan dizaynın mərhələvi təkamül yolu əsaslandırılır;
- Azərbaycan sənaye dizaynının tarixi inkişafı respublikada sosial-iqtisadi vəziyyətin dinamik inkişafı kontekstində müəyyənləşdirilir;
- Respublikada sənaye dizaynının inkişaf dövrlərini və istiqamətlərini əks etdirən zəngin materiallar tədqiqata cəlb edilir;
- Əşya və avadanlıqlarda erqonomik problemlərin oyrənilməsi və optimal həlli ilə bağlı inteqrativ yanaşma zəminində təfəkkürün müxtəlif növlərinə əsaslanan "Erqonomik təfəkkür" konsepsiyası, həmçinin yeni terminlər irəli sürülür;
- Bədii və texniki mədəniyyətin inkişafında layihələndirmənin rolu, vəzifələri, həmçinin nəzəri-metodoloji əsasları müasir tələblər baxımından nəzərdən keçirilir;
- Dizayn-layihələndirmədə kompüterdən kütləvi istifadə imkanlarının optimallaşdırılması üçün müasir proqramlarda "Çertyoj simvolları – şərti işarələr" bölməsinin yerləşdirilməsinin vacibliyi müəyyənləşdirilir;
- Məmulatların, utilitar-funksional göstəricilərində erqoestetik amillərin rolu əsaslandırılır;
- Azərbaycan sənaye dizaynının formalaşması və inkişafının üç xətt – Qərb təcrübəsi və texnologiyası, milli təcrübə, Rusiya təcrübəsi və texnologiyası üzrə olması ilə müəyyən edilir;
- Müasir şəraitdə respublikanın müvafiq istehsal sahələrinin dizayn yaradıcılıq təcrübəsi, eləcə də onun rolu və inkişaf perspektivləri nəzərdən keçirilir;

- Qrafik dizayn üzrə müxtəlif xarakterli loqotiplərin bədii-estetik amillər və ifadəli vizual göstəricilərlə şərtlənən bitkin kompozisiya xüsusiyyətləri şərh edilir;
- Milli kadr hazırlığı işinin təşkili ilə əlaqədar dizayn təhsilinin milli zəmində Qərb təhsil sisteminə inteqrasiya edilməsi, həmçinin tədris prosesində fənlərarası əlaqənin gücləndirilməsi imkanları təhlil edilir və əsaslandırılır.

**Tədqiqatın nəzəri-təcrübi əhəmiyyəti.** Dissertasiya Azərbaycan sənaye dizaynının təşəkkülü və inkişaf dövrlərini, həmçinin istiqamətlərini sistemli və kompleks şəkildə öyrənən ilk tədqiqat işi kimi elmi-nəzəri və təcrübi əhəmiyyətə malikdir.

Tədqiqat işi Azərbaycan sənaye dizaynının tarixi təşəkkülü və formalaşmasını, respublikada bədii konustruksiyaetmə işinin təşkilində və inkişafında mühüm rol oynamış XBKB-nin mərhələli fəaliyyətini, o cümlədən bədii istehsal sahələrində hazrlanan nümnələrin utilitar-funksional göstəriciləri, həmçinin estetik mahiyyətinin zəngin faktoloji materiallar əsasında öyrənilməsi ilə xarakterizə olunur ki, bu da gələcək tədqiqat işləri üçün elmi-nəzəri və tarixi-faktoloji mənbə kimi faydalı ola bilər.

Tədqiqatın nəticələri respublikada müasir dövrün texnoloji imkanları, həmçinin bazar iqtisadiyyatının tələbləri səviyyəsində təşkil edilən istehsal müəssisələrində hazırlanan məhsulların dizayn həllində elmi mənbə kimi təcrübi əhəmiyyətə malikdir.

Dissertasiya işi müvafiq ali və orta ixtisas məktəblərində tədris vəsaiti, həmçinin elmi-tədqiqat institutlarının müvafiq şöbələrində elmi mənbə kimi istifadə oluna bilər.

**İşin aprobasiyası.** Dissertasiya AMEA Memarlıq və İncəsənət İnstitutunun "Heraldika və dizayn" şöbəsində yerinə yetirilmiş və müzakirə olunmuşdur. Tədqiqatın əsas məzmunu yerli və beynəlxalq səviyyəli elmi konfranslarda dinlənilmiş, eləcə də müəllifin nüfuzlu elmi məcmuələrdə dərc olunmuş məqalələrində öz əksini tapmışdır.

**Tədqiqatın strukturu.** Dissertasiya giriş, altı fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından və əlavə olunan fotoillüstrativ materiallardan ibarətdir. Mətn 219 kompüter səhifəsində təqdim olunmuşdur.

# İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılır, problemin işlənmə dərəcəsi, işin nəzəri -metodoloji əsasları, obyekti və predmeti, məqsəd və vəzifələri, xronoloji hüdudları şərh olunur, elmi yeniliyi və nəzəri-təcrübi əhəmiyyəti açıqlanır.

**I fəsil "Sənaye incəsənətinin tarixi təşəkkülü"** adlanır. Bu fəsildə dizaynın tarixi təşəkkülü, elmi bazası, müasir mərhələdə müxtəlif növlər üzrə inkişaf səviyyəsi təhlil edilir. Mənbələrdən məlum olduğu kimi, dizayn termini hələ orta əsrlərdən işlədilməyə başlanmışdır. Elə həmin dövrlərdə bir çox yeni kəşflər, ixtiralar, müxtəlif yaradıcılıq nümunələri meydana gəlmişdir ki, bunlar da müəyyən mənada həm də dizayn nailiyyətləri kimi xarakterizə edilir.

Dizayn sözünün ingilis dilindən hərfi tərcüməsi "plan", "rəsm", "çertyoj" sözləri ilə ifadə edilir. Eyni zamanda, bu yaradıcılıq sahəsi ilə məşğul olan adam – "dizayner" adlanır, o isə ingilis dilindən tərcümədə, " bic adam", "ağıllı adam" mənasını ifadə edir.[3]

Bununla belə, dizayn yaradıcılığına ümumi yanaşmadan çıxış edərək qeyd etmək olar ki, onun Qərbi Avropanın müxtəlif ölkələrində vüsət alaraq inkişaf edən sənaye incəsənətinə aid edilməsi daha çox vurğulanır.

İngiltərədə maşın istehsalına əsaslanan sənaye ilə cəmiyyətin estetik baxışlarını, fəhlələrin yeni texnikaya münasibətini tənzimləmək üçün 1836-cı ildə "Everta" komitəsi təşkil edildi. Həmin dövrdə kitabların və məqalələrin əksəriyyəti artıq mədəniyyətin texnikaya təsirinə həsr edilirdi. 1849-cu ildə Londonda əşya mühiti və onun layihələndirilməsinin estetik problemlərinə həsr edilən - "Journal of Design and Manufactures" adlı ilk xüsusi jurnal nəşr edildi. Məhz bu dövrdə "industrial art" - (sənaye incəsənəti) termini istifadə edilməyə başlandı.[4]

Nəhayət, XIX əsrin sonu İngiltərədə mühacirətdə olan alman memarı Q.Zemperin (1803-1879), ingilis sənətşünası C.Ryoskinin (1819-1900) və ingilis rəssamı və ictimai xadimi U.Morrisin (1834-1896) yaradıcılığı timsalında ilkin dizayn nəzəriyyələri ortaya çıxdı ki, bu da sənaye estetikasının, texniki estetikanın, ümumilikdə dizaynın –

---

[3]Лаврентьев А.Н. История дизайна. Москва, «Гардарики», 2006, с. 11

[4] Михайлов С.М., История дизайна. Том I. Москва, «Союз дизайнеров России», 2000,с.42-62

sənaye incəsənətinin elmi-nəzəri zəmində əsaslı inkişafına şərait yaratdı. Ona görə də mütəxəssislər dizaynın elmi-nəzəri əsasda inkişaf tarixini məhz bu dövrə aid edirlər.

1907-ci ildə Almaniyada – Münxendə ilk dəfə "Verkbund" istehsalat ittifaqı yaradıldı. Həmin ittifaqın təsisçiləri G.Muteziusla yanaşı, digər rəssam və memarlardan Anri van de Velde, Peter Berens, Karl Ostxaus, liberal siyasətçi Fridrix Nauman, Drezden emalatxanalarının rəhbəri Karl Şmidt olmuşlar. 1908-ci ildə Alman Verkbundunun üzvlərinin sayı 489 nəfər, 1912-ci ildə minə yaxın, 30-cu illərin əvvəllərində 3 mindən yuxarı olmuşdur. Verkbundun tərkibində XX əsrin müasir sənaye istehsalını bədii yaradıcılığın əsası kimi qəbul edərək, demək olar ki, bütün alman memarları və rəssamları cəm-ləşmişdilər.[5]

1919-cu ildə təşkil edilən Vaymar Tətbiqi-İncəsənət Məktəbi – Bauxauz Dövlət Dizayn İnstitutu dizayndakı formayaranmada sadəlik və rasionallığı təbliğ edərək, ümumilikdə dünya bədii mədəniyyətinin inki-şafında önəmli rol oynamışdır.

Qərbi Avropa ölkələrindən fərqli olaraq, Azərbaycanda sənaye dizaynının formalaşması və inkişafı, əsasən, XX əsrin əvvəllərinə təsadüf edir. Çünki bu dövrdə Azərbaycanda neft sənayesinin genişlənməsi, xarici sərmayənin respublikaya axını sənayenin digər sahələrini də inkişaf etdirirdi ki, bu da öz növbəsində bədii sənayenin tərəqqisinə təsir göstərdi. O dövrdə bədii sənayenin inkişaf etdirilməsi ilə bağlı nəşr edilmiş məqalələrin müəllifi olan Həsən bəy Zərdabinin (1842-1907) həmin sahədəki ilkin təşəbbüskarlıq fəaliyyəti Azərbaycan milli dizayn tarixinin formalaşmasında xüsusi əhəmiyyət kəsb edir.

Hər bir intellektual fəaliyyət sahəsi kimi, dizayn yaradıcılığı da bədii-estetik meyarlarla yanaşı, ciddi elmi əsasları olan bazaya söykənir. Həmin elmi bazanı erqonomika təşkil edir ki, bu da həmin yaradıcılığın əsas aparıcı xətlərindən biri ilə səciyyəvidir.

"Erqonomika" termini (yun. ergon - iş + nomos - qanun) 1949-cu ildə İngiltərədə qəbul edilmişdir və həmin dövrdə bir qrup ingilis alimi erqonomik tədqiqatlar cəmiyyətini təsis etmişlər. Həmin cəmiyyətin üzvləri əməyin rasional təşkilinin həlli problemini ortaya çıxartmışlar.[6]

---

[5]Михайлов С.М., История дизайна. Том I. Москва, «Союз дизайнеров России», 2000,с.154-158

[6]Квасов А.С. Художественное конструирование изделий из пластмасс. Москва, «ВШ», 1989,с. 131

Qlobal yaradıcılıq hesab olunan dizaynın və onun ayrı-ayrı sahələri üzrə həyata keçirilən yaradıcılıq prosesinin təfəkkürün müxtəlif növlərinə inteqrativ formada əsaslanması təbiidir. Bu baxımdan dizayn üzrə yaradıcılıq fəaliyyətində bədii təfəkkürlə yanaşı, təfəkkürün texniki, məntiqi, vizual və s. növlərinin inkişaf etdirilməsi vacibdir.

Dizaynerin yuxarıda şərh etdiyimiz kimi, zəngin texniki təfəkkürə malik olması xüsusi əhəmiyyət kəsb edir. Lakin məsələyə ümumi kontekstdə və daha dərindən yanaşdıqda, sinkretik yaradıcılıq sahəsi olan dizayn üçün bu kifayət edə bilərmi? Əlbəttə, yox! Məsələ burasındadır ki, dizaynerdə daha bir başqa növ təfəkkürün formalaşması da (özü də yüksək inkişaf səviyyəsində) vacibdir. Elmi ədəbiyyatlardakı təsnifatda olmayan bu təfəkkür növünü dizayn yaradıcılığında erqonomik problemlərin həlli istiqamətində çıxış edən, fəaliyyət göstərən "erqonomik təfəkkür" adlandırmaq olar. Biz bir neçə onilliklərin əyani müşahidə və praktik təcrübəsi nəticəsində bu qənaətə gəlmişik. Tədqiqat işində bizim tərəfimizdən elmi dövriyyə üçün yeni olan "Erqonomik təfəkkür" konsepsiyası irəli sürülmüş və elmi cəhətdən əsaslandırılmışdır. Təqdim etdiyimiz sxemdə erqonomik problemin təzahürü, onun spesifik xüsusiyyətlərindən asılı olaraq, təfəkkürün müxtəlif növlərinə əsasən qavranılması, bu kontekstdə erqonomik təfəkkürün formalaşması və inkişafı göstərilir (sxem1).



Sxem1.Erqonomik təfəkkürün formalaşma prosesi

**“Dizaynda erqoestetik problemlər”** adlanan **II fəsildə** dizaynda iki başlıca amilə – erqonomika və estetikaya aid olan problemlər araşdırılır.

Layihələndirmə prosesi zamanı müxtəlif növ əşya və avadanlıqların struktur xüsusiyyətlərinin müəyyənləşdirilməsində, həmçinin formayaranmasında erqoestetik məsələlərin həllinə kompleks şəkildə baxılmalıdır. Və burada beynəlxalq standartların nəzərə alınması vacibdir. Kompleks şəkildə baxılan erqoestetik məsələlər həm erqonomik tələblər ardıcıllığını, həm də estetik faktorları özündə cəmləşdirir.

*İnsan - əşya - maşın - mühit* sistemləri üçün hazırlanan məmulatların, qurğu və avadanlıqların erqonomik tələblərinin çoxcəhətliliyinə əsasən, onların maksimum nəzərə alınması məmulatın utilitar-funksional baxımdan erqonomik həllini daha effektli, yüksək səviyyədə təmin etmiş olur.Məmulatın hazırlanmasında kompleks erqonomik tələblərin aşağıdakı ardıcıllıqla nəzərə alınması zəruridir:

- konstruksiyanın – strukturun erqonomikliyi;
- ayrı-ayrı hissələrin bir-birinə və ümumi quruluşa nəzərən erqonomikliyi;
- materialın erqonomikliyi (istifadə və davamlılıq üçün);
- fakturanın erqonomikliyi;
- rənglərin təyinat üzrə erqonomikliyi;
- quruluşun statik və dinamik erqonomikliyi;
- formanın və dekorun erqonomika ilə şərtlənməsi;
- təyinat üzrə utilitarlıq və funksionallıq üçün erqonomiklik;
- qablaşdırmanın erqonomikliyi;
- qablaşdırmada tərtibatın, o cümlədən informasiyanın, şrift-sözdən ibarət olan kompozisiyanın erqonomikliyi.

Məmulatın hazırlanmasında yuxarıda göstərilən kompleks erqonomik tələblərin nəzərə alınması və həll edilməsi, eyni zamanda, onun *insan - əşya - maşın - mühit* sistemlərində istifadəsi, təması üçün mövcud ola biləcək aşağıdakı erqonomik tələbləri təmin etmiş olar:

- antropometrik;
- psixofizioloji;
- psixoloji;
- fizioloji;
- gigiyenik;
- sosial - psixoloji;

- iqtisadi.

Dizayn yaradıcılığı üzrə forma, formayaranmada estetik faktorlardan danışarkən, ilk öncə, estetika sözünün mənşəyi və onun elm sahəsi kimi predmeti, mahiyyəti və vəzifələrinə, həmçinin dizaynla əlaqəsinə və həmin yaradıcılıq sahəsindəki roluna diqqət yetirmək lazımdır.

"Estetika" termini elmdə ilk dəfə 1750-ci ildə alman filosofu və klassik estetikasının banisi Aleksandr Baumharten tərəfindən işlədilmişdir. Bu termin yunanca ("aistueses") "estezis" sözündən götürülmüşdür ki, bunun da mənası "hiss", "aistuetikas" isə "hiss vasitəsilə dərk etmək" kimi başa düşülür. A.Baumharten həmin elm haqqında latın dilində yazdığı ikicildlik əsərini "Estetika" adlandırmışdır (əsərin birinci cildi 1750-ci ildə çapdan çıxmışdır). O, ilk dəfə bu kitabda estetikanın mahiyyətini və onun fəlsəfi elmlər arasındakı mövqeyini müəyyənləşdirməyə çalışmşdır. [7]

Beləliklə, XVIII əsrin II yarısında Avropanın, o cümlədən Almaniyanın akademiya və universitetlərində estetika fəlsəfi fənn kimi təsdiq edilir. Berlində, Qallda, Bonnda, İəndə və s. müxtəlif şəhərlərdə yeni fəlsəfi elmə həsr olunmuş nəşrlər işıq üzü görür. Alman estetiklərindən İ.A.Eberqard, T.Eşenburq, K.Meyners və başqaları Baumhartenin ardınca estetikanı nəzəri və praktiki hissələrə bölməyə başladılar. Almaniyadan sonra Avropa ölkələrində, o cümlədən Rusiyanın institut və universitetlərində estetika müstəqil fəlsəfi elm kimi öyrənilməyə başlandı.[8]

Elmi ədəbiyyatdakı şərhə görə, texniki estetika – sənayedə müasir istehsal vasitələri ilə utilitar və estetik keyfiyyətləri özündə əks etdirən əmək alətləri və s. əşyaların gözəllik qanunları əsasında kütləvi hazırlanma təcrübəsini ümumiləşdirir.[9] Başqa sözlə, texniki estetika *insan - əşya - maşın - mühit* sistemlərinin harmonik yaradılması və təşkilinin, insanın həyat və fəaliyyəti üçün maksimum komfortlu şəraitin reallaşdırılması istiqamətində bu və ya digər problemlərin nəzəri aspektlərini həll edir.

Layihələndirmə prosesində əşya və avadanlıqların formayaranmasında onların quruluşundan və təyinatından asılı olaraq, estetik faktorla şərtlənən kompleks tələbatların bu və ya digər səviyyədə

[7]Əlizadə H. Estetika. Bakı, "Elm", 2007, s. 13
[8]Əlizadə H. Estetika. Bakı, "Elm", 2007 , s.15-16
[9]Борев Ю.Б. Эстетика. 3-е изд. Москва, «Политиздат», 1981,с.32

nəzərə alınması vacibdir. Forma öz-özlüyündə geniş anlayış olub zaman və məkan şəraitində demək olar ki, bütün mövcudiyyatı əhatə edir. Formayaranma dizaynda, eləcə də incəsənətin digər sahələrində yaradıcılıq prosesində uzun inkişaf yolu keçmiş, müxtəlif tarixi dövrlər üzrə ayrı-ayrı mədəniyyət ənənələrini və xüsusiyyətlərini özündə ehtiva etmişdir.[10] Hər hansı forma quruluşuna malik olan maddi mövcudiyyat, o cümlədən yaradıcılıq nümunələri özünün struktur xüsusiyyətlərinə və görünüşünə görə, əsasən, üç qrupa ayrılır: həcm-məkanlı, əşyavi və müstəvi. Ümumilikdə götürdükdə, forma hər hansı bir obyektin quruluşunun, məzmununun vizual ifadəsi olmaqla, onun haqqında ilkin informasiyanı yaradır və əyani təsəvvürü formalaşdırır. Təbiətdəki bütün canlı və cansız varlıqlar müəyyən forma quruluşuna malikdir. Forma bir predmeti, əşyanı digərindən müxtəlif əlamətlərinə və spesifik xüsusiyyətlərinə görə fərqləndirir. Formanın dərk edilməsi vizual qavrayışa əsaslanır. Vizual qavrayış formanın özünəməxsus xüsusiyyətləri, məzmunu haqqında kompleks informasiya yaradır. Təbiətdə olan formaların çoxcəhətli xüsusiyyətləri müxtəlif sənətçiləri, memarları həmişə düşündürmüşdür. Onlar bu istiqamətdə araşdırmalar aparmış, təbiətdəki müvafiq forma quruluşlarını yaradıcılıqda tətbiq etməyə çalışmışlar. Bu sahədə Leonardo da Vinçinin baxışları və yaradıcılıq təcrübəsi heyrətamizdir.

Beləliklə, təbiətdə olan mükəmməl forma quruluşlarının memarlıqda, dizayn yaradıcılığında bu və ya digər səviyyədə tətbiq edilməsi daim diqqət mərkəzində olmuşdur.

Formayaranmada tətbiq edilən qanunauyğunluqlar, əsasən, simmetriya, asimmetriya, qızıl bölgü, mütənasibliklər sistemi və s. ibarətdir.

*İnsan - əşya - maşın - mühit* sistemlərinin təşkilində erqonomik faktorlar – antropometriya, biomexanika, gigiyena, işıqlandırma və s. məsələlərlə yanaşı, rənglərin həm estetik, həm də psixofizioloji baxımdan məqsədyönlü istifadə edilməsi, xüsusilə diqqət mərkəzində olmalıdır.

Rənglərin semantikası və psixofizioloji təsirləri ilə bağlı məsələlər müxtəlif elmi ədəbiyyatlarda bu və ya digər səviyyədə əsaslandırılaraq şərh edilmişdir. Həmin mənbələrdəki elmi-nəzəri mülahizələrə, eləcə də fərdi müşahidə və elmi-praktik təcrübələrimizə əsasən rəngləri fiziki

---

[10]Ковешникова Н.А. Дизайн: история и теория. Москва, «Омега-Л», 2007,с.206-221

xassələrinə və psixoemosional təsirlərinə görə müxtəlif qruplar üzrə (əsas rənglər, alınma rənglər) aşağıdakı kimi təsnifatlaşdırmaq olar: *xromatik-axromatik; isti-soyuq; aktiv-passiv; ağır-yüngül; qabarıq-çəkilən; kontrast-qohum; nikbin-qüssəli; qıcıqlandırıcı-sakitləşdirici; rəmzi* və s.

Sənaye dizaynında, sənaye qrafikasında, reklam, bədii büküm, bədii qablaşdırma və s. yaradıcılıq işlərində rənglərin təsnifatlaşdırma üzrə müxtəlifliyi və çoxcəhətli xüsusiyyətlərinin nəzərə alınaraq tətbiq edilməsi, kompozisiyanın ifadəliliyinə və vizual qavranılma imkanlarına bədii-estetik, psixoemosional, həmçinin erqonomik baxımdan effektiv təminat yarada bilər.

**III fəsil"Azərbaycan sənaye dizaynının təşəkkülü, müxtəlif dövrlər və istiqamətlər üzrə inkişafı"** adlanır. Bu fəsildə respublikada sənayenin müxtəlif sahələrinin inkişaf dinamikası kontekstində sənaye dizaynının həmin istiqamətlər üzrə inkişafı araşdırılır.

XIX əsrin sonu – XX əsrin əvvəlləri Qərbi Avropa ölkələri və Rusiyadan Azərbaycana müxtəlif sənət adamlarının, sərmayədarların gəlməsi ölkədə ümumi həyat səviyyəsinin sosial-iqtisadi və mədəni cəhətdən yüksəldilməsi ilə yanaşı, sənayenin inkişafına da müəyyən təsir göstərməkdə idi. Əlbəttə, həmin dövrdə Azərbaycanda sənayenin vüsətlənməsini, əsasən, neft sənayesi təşkil edirdi ki, bu da ölkənin digər şəhərlərinə nisbətən Bakı şəhərinin iqtisadi cəhətdən daha sürətlə inkişafına şərait yaradırdı. Bakıda digər sahələrlə yanaşı, sənətkarlığın inkişafı da mühüm əhəmiyyət kəsb edirdi.

XX əsrin əvvəllərində Bakıda neft və digər sənaye sahələrinə, gəmiçilik və dəmiryolu nəqliyyatına xidmət edən maşınqayırma, metal emalı sənayesi də müəyyən inkişaf səviyyəsinə çatmışdı. 1900-cü ildə Bakıda metal emalı ilə məşğul olan 52, 1907-ci ildə isə 109 sənaye müəssisəsi var idi. Sonrakı illərdə Bakıda olan metal emalı və maşınqayırma müəssisələrinin sayı daha da artmış və Birinci Dünya müharibəsi ərəfəsində 127-yə çatmışdı. Mexaniki istehsalla üzvi surətdə bağlı olan gəmi təmiri müəssisələrinin də sayı artmaqda idi. XX əsrin əvvəllərində Bakıda yüngül və yeyinti sənayesinin inkişafında da müəyyən irəliləyiş nəzərə çarpırdı. Bunlarla yanaşı, Bakıda sənətkarlığın inkişafı da mühüm əhəmiyyət kəsb etmişdi. Göstərilən mənbədəki məlumata görə, burada 1900-cü ildə 33,6, 1904-cü ildə 27,8 min nəfər sənətkarlıqla

məşğul olurdu.[11]

Beləliklə, XX əsrin əvvəlləri Azərbaycanda sənayenin, xüsusi ilə neft sənayesinin inkişafı sənaye dizaynının formalaşmasında əhəmiyyətli dərəcədə rol oynadı. Bununla yanaşı, ölkəyə sərmayə qoyulmasının artırılması, "Nobel qardaşları", "Standart oyl", "Şel" şirkətləri tərəfindən Azərbaycana yeni istehsal texnologiyalarının gətirilməsi sənayeni inkişaf etdirərək, məmulatların istehsal prosesində hazırlanmasına şərait yaradırdı. Bütün bu proseslərin aparıcı qüvvəsi olan kadr hazırlığı məsələsi də diqqət mərkəzində idi. Bununla əlaqədar olaraq, görkəmli alim, maarifçi və ictimai xadim Həsən bəy Zərdabi 1899-1900-cü illərdə "Kaspi" qəzetində dərc etdirdiyi məqalələrində bədii sənaye sahəsində peşə məktəbləri və muzeylərin yaradılması zərurətinə diqqət yetirmişdir. [12]

Artıq 1920-ci illərdə Bakıda bir sıra incəsənət ocaqları, o cümlədən Rəssamlıq məktəbi, Plakat emalatxanası, Dövlət muzeyi, qədim incəsənət və maddi mədəniyyət abidələrini öyrənən cəmiyyət və s. təsis edilmişdir.[13] 1920-1930-cu illərdə Bakıda Vxutemasın (Ali bədii-texniki emalatxanaları) məzunları olan M.Əfəndi, Ş.Telinqater, R.Mustafayev və S.Yefimenko fəaliyyətə başlamışdılar. Həmin dövrdə bədii tərtibat sahəsində əldə edilən uğurlar, respublika miqyaslı sərgilərin keçirilməsi dizayn yaradıcılığının inkişafına təsir göstərirdi.[14]

XIX əsrin ikinci yarısından Azərbaycanın müxtəlif bölgələrində fərdi sənətkarlığın timsalında zərgərlik sənəti inkişaf etdirilmişdir. Müxtəlif bəzək məmulatlarının formalaşdırılmasının bədii-estetik həlli iqtisadi dəyərlə ölçülə bilən bu əşyaları realizə etmək imkanı da verirdi.

1920-ci illərdə respublikada zərgərlik sənəti daha da təkmilləşdirilmiş, onun bədii-estetik xüsusiyyətləri zənginləşdirilmişdir. Bu dövrün zərgərlik məmulatları əhalinin mənəvi ehtiyaclarını ödəməklə yanaşı, eləcə də respublikanı Ümumittifaq miqyasında layiqincə təmsil edirdi.

1920-ci illərin əvvəlləri Xalq Təsərrüfatı Şurası yanında kustar və sənətkarlıq sənayesi işləri üzrə komitə sistemində zərgərlik artellərinin fəaliyyəti əhəmiyyətli dərəcədə güclənməyə başladı. Belə artellər yalnız

---

[11] Musayev M.Ə. XX əsrin əvvəllərində Bakı şəhərinin ticarəti: (1900 - 1917-ci illər). Bakı, "Elm", 1975, s .9

[12] Salamzadə Ə.Ə. Dizayn və informasiya. Bakı, "Təknur", 2006,s.40

[13] Kərimov K., Əfəndiyev R., Rzayev H., Həbibov N. Azərbaycan incəsənəti. Monoqrafiya. Bakı, "İşıq", 1992, s.251

[14] Salamzadə Ə.Ə. Dizayn və informasiya. Bakı, "Təknur", 2006,s. 40

Bakıda deyil, eyni zamanda, Naxçıvanda, Gəncədə, Şəkidə də məhsuldar fəaliyyət göstərirdi. Azərbaycan zərgərlik məmulatlarına olan böyük tələbatla əlaqədar olaraq, 1926-cı ildə Bakıda xüsusi Zərgərlik Fabriki açılır. Fasiləsiz olaraq texniki materiallarla təchizat, istehsalın mexanikləşdirilməsi, el sənətkarlarının fabrikdə işə cəlb edilməsi – bütün bu cəhətlər zərgərlik məmulatlarının böyük seriyalarla buraxılmasını təmin edirdi. Fabrikdə Orta Asiya, Zaqafqaziya, eləcə də digər respublikalardan və şəhərlərdən alınan sifarişlər yerinə yetirilirdi.[15]

Zərgərlik məmulatlarının bəzi nümunələri diqqəti xüsusi ilə cəlb edir. Məsələn, "Bakı sırğaları"– 1921 (Həsən Quliyev), "Cüt qabağı"– 1922 (Gülbala Hüseynov) adlı nümunələr zəngin bədii kompozisiya quruluşuna əsaslanır. Bu nümunələrdə müxtəlif simvollardan – aypara və ulduz elementlərindən peşəkarlıqla istifadə edilmişdir ki, bunu da həmin əşyaların bədii dəyərinin, estetik mahiyyətinin artırılması ilə xarakterizə etmək olar. [16]

1925-ci ildə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi nəzdində xalq təsərrüfatı sənayesinin "İlk kustarlar" şöbəsi təşkil edildi ki, bu da sənətkarları öz ətrafında birləşdirdi. O dövrdə Azərbaycan Xalq Təsərrüfatı İdarəsi xalq ustalarının fəaliyyətini yüksəltmək üçün ideoloji və təşkilati iş aparırdı.[17]

1930-1932-ci illərdə Gəncə, Naxçıvan, Şəki və Bakıda qızıl-gümüş ustaları yeni təşkil olunmuş artellərə gəlirdilər və zərgərlik artelləri də Azərittifaqın nəzdində fəaliyyət göstərirdi. Belə artellərdə xalq zərgərləri, baş ustalar fərdi sifarişlər üzrə üzük, sırğa, qolbaq və s. zinətləri həm təmir edir, həm də hazırlayırdılar.[18]

1920-ci illərdə sənaye dizaynının inkişafı parça məmulatlarının istehsalı ilə də səciyyəvi olmuşdur. Belə ki, göstərilən dövrdə kütləvi istehsal edilən məmulatlar, mallar içərisində əsas yerlərdən birini parça istehsalı tuturdu.

Bakı, Gəncə, Şəki, Basqal, Şamaxı və digər bölgələrdə həm də kəla-

---

[15]Тарланов М. Декоративно-прикладное искусство Азербайджана. Баку, «Азернешр», 1968,с. 26

[16]Тарланов М. Декоративно-прикладное искусство Азербайджана. Баку, «Азернешр», 1968,с 24-25

[17]Əsədova S.D. XIX-XX əsrlərdə Azərbaycan zərgərlik incəsənəti. Bakı, "Elm", 1978,s.35

[18]Əsədova S.D. XIX-XX əsrlərdə Azərbaycan zərgərlik incəsənəti. Bakı, "Elm", 1978,s.35

ğayı istehsalı üçün artellər fəaliyyətə başlayır. 1920–1945-ci illərdə kəlağayı istehsal olunan artellərdə bir çox peşəkar sənətkarlar özlərinin yaradıcılıq işləri ilə şöhrət qazanmışlar.[19]

O dövrdə Basqaldan bir qədər kənarda yerləşən Mücü kəndində "kanaus" adlı xüsusi bədii ipək parçanın istehsalı haqqında da məlumat verilir. Bu parça növü kustar üsulla hazırlanmasına baxmayaraq, geniş formada yayılırdı. Həmin parçalarda bədii tərtibat, əsasən, qırmızı, narıncı, yaşıl, göy, sarı və bənövşəyi rənglərdə nazik paralel haşiyələr üzrə aparılırdı. Bununla yanaşı, kişi və qadın üst geyimləri üçün bir rəngdə olan yüngül parça növü də hazırlanırdı.[20]

1930-cu illərin sonu ipək parçalarla yanaşı, Şəki İpək Kombinatında naxışvurma üsulu ilə ornamental parçaların istehsalına başlanılır. Bu parçaların üzərində milli xalq sənəti elementləri ilə yanaşı, "beynəlmiləl" motivli tərtibat işlərindən də istifadə edildiyi bildirilir. [21]

1920-ci illərdə Azərbaycanın ictimai-iqtisadi həyatında baş verən əsaslı dəyişikliklərlə əlaqədar olaraq, xalçaçılıq sənəti də yeni texnoloji proseslərə əsasən inkişaf etdirilirdi. Həmin dövrdə Zaqafqaziya Dövlət Ticarət Müəssisəsinin və "Azərxalçaittifaq"ın yaradılması bu sənətin daha da təkmilləşdirilməsinə geniş imkanlar açmışdır. 1933-cü ildən etibarən Azərbaycan Sənaye Şurasının tədris kombinatında xalçaçılıq üzrə tədris işinə başlanılır və 1935-1938-ci illərdə Bakı və Quba şəhərlərində toxucular, təlimatçı və baş ustalar hazırlanır.[22]

Respublikada xalçaçılığın inkişafı ilə əlaqədar olaraq, ixtisaslı kadr potensialının artırılmasına da ciddi fikir verilirdi. 1928-ci ildə Xalq Maarif Komissarlığı tərəfindən Ali Dövlət Gözəl Sənətlər Məktəbi açılmışdır. Bu məktəbdə stilistika, incəsənət tarixi, rəssamlıq və s. fənlərdən dərs keçirilirdi. Məktəbin xalçaçılıq bölməsi bu sahənin kadrlarla təmin olunmasına xidmət etmişdir. [23]

Böyük Oktyabr Sosialist İnqilabının 30-cu ildönümünə həsr edilmiş

---

[19]Тарланов М. Декоративно-прикладное искусство Азербайджана. Баку, «Азернешр», 1968,с. 14

[20]Тарланов М. Декоративно-прикладное искусство Азербайджана. Баку, «Азернешр», 1968,с14-15

[21]Тарланов М. Декоративно-прикладное искусство Азербайджана. Баку, «Азернешр», 1968,с15

[22]Müciri C. Azərbaycan xalçaçılığı (Azərbaycan xalçaçılığının texnoloji üsulları). Bakı, "Azərnəşr", 1977,s. 4

[23]Müciri C. Azərbaycan xalçaçılığı (Azərbaycan xalçaçılığının texnoloji üsulları). Bakı, "Azərnəşr", 1977,s. 4-5

xalq bədii sənəti və dekorativ-tətbiqi sənət üzrə Ümumittifaq sərgisində Azərbaycan Respublikası fəxri yerlərdən birini tutmuşdur. Həmin sərgidə respublikanın xalçaçılıq, tikiş, zərgərlik, ağac üzərində işləmə, parça və digər bədii sənaye məmulatları üzrə nümunələri müvəffəqiyyətlə nümayiş etdirilmişdir. [24]

Bu dövrdə ayaqqabı sənayesi də inkişafda olmuşdur.

Ümumiyyətlə, XX əsrin əvvəllərindən baş verən bu inkişaf Böyük Vətən müharibəsi illərində müəyyən qədər zəifləsə də, 1980-cı illərin ikinci yarısına kimi qalxan xətt üzrə davam etmişdir.

Beləliklə, apardığımız araşdırmalara görə, sənaye dizaynının I mərhələdə inkişafı əsasən aşağıdakı istehsal istiqamətləri üzrə olmuşdur: *zərgərlik; xalçaçılıq məmulatı; tekstil-geyim; dəri-ayaqqabı;* qismən-*şüşə; çini-saxsı sənayesi* və digər məhsullar.

Azərbaycanda sənayenin inkişafı əvvəlki dövrlərdən fərqli olaraq, 1950-1960-cı illərdə daha da intensivləşdirilmişdir. Bu dövr respublikada bədii konstruksiyaetmə işinin əsaslı olaraq təşkil edilməsi, sənaye dizaynı istiqamətində kadr potensialının artırılması, eyni zamanda, dövlət səviyyəsində aparılan bir sıra təşkilati işlər və tədbirlərlə səciyyəvi olmuşdur.

Tətbiqi sənət və bədii sənaye məmulatları sərgisinin keçirilməsi barədə Azərbaycan Respublikası Nazirlər Sovetinin 10 iyul 1959-cu il tarixli qərarı bu illərdə kütləvi şəkildə buraxılan bədii məmulatlarla yanaşı, nümunəvi xarakter daşıyan xalq sənəti əsərlərinin də yaradılmasına böyük imkanlar açırdı. [25]

Tarixi materiallar üzrə apardığımız araşdırmalar bir daha deməyə əsas verir ki, 1950-1960-cı illərdə Azərbaycan sənaye dizaynı daha da geniş istehsal sahələri üzrə inkişaf etmişdi.Məhz bu dövrdə – 1962-ci ildə ilk dəfə Bakıda kütləvi istehsal üçün məişət nümunələrindən ibarət "İncəsənət və məişət" adlı sərgi təşkil edilmişdir.[26]

Həmin dövrdə respublikada aparıcı yerlərdən birini də zərgərlik məmulatlarının istehsalı tuturdu. İstehsal prosesinə əsaslanan bu yaradıcılıq fəaliyyətində Bakı Zərgərlik Fabrikinin, onun peşəkar

---

[24]Тарланов М. Декоративно-прикладное искусство Азербайджана. Баку, «Азернешр», 1968,с.61

[25]Müasir Azərbaycan memarlığı və incəsənəti. K.Kərimovun və Ş.Fətullayevin redaktəsi ilə.Bakı, "Elm", 1992, s.102

[26]Тарланов М. Декоративно-прикладное искусство Азербайджана. Баку, «Азернешр», 1968,с.65

kollektivinin böyük əməyi olmuşdur.

Mənbələrdə göstərilir ki, 1950-1960-cı illərdə Bakı Zərgərlik Fabrikində Qərb üslubunda hazırlanan qızıl və gümüş zinət əşyaları müasirləşdirilərək yeni formalara salınırdı. Bu dövrdə fabrikin texnoloji cəhətdən inkişafı da diqqət mərkəzində olmuşdur. Zərgərlik məmulatlarının istehsalında göstərilən dövrdə Qərb üslubundan, eləcə də ənənəvi təcrübələrdən istifadə edilirdi.[27]

O illərdə Zərgərlik Fabriki ilə yanaşı, Azərbaycanda bədii sənaye müəssisələrinin – "Azərxalça"nın nəzdindəki xalçaçılıq artellərinin, Şüşə və Çini qablar zavodlarının, həmçinin Şəki İpək Kombinatının fəaliyyəti genişlənməyə başlayır.

Parça istehsalının nümunəvi ənənəsi kimi, 1958-ci ildə Brüsseldə təşkil olunmuş Beynəlxalq sərgidə Şəkidə istehsal olunmuş parçalar yüksək qiymət almışdır.[28] Həmin sərgidə Azərbaycan xalçaları gümüş medala layiq görülmüşdür.[29]

O dövrdə Şəki İpək Kombinatı ilə yanaşı, Bakı Dəri-Qalanteriya Fabrikində də naxışlı ipək kəlağayılar istehsal olunurdu.
Təhlil edilən dövr üzrə dəri-ayaqqabı sənayesinin inkişafı da qeyd olunmalıdır.

Sənaye dizaynının II mərhələdə inkişafı əsasən, aşağıdakı sahələr üzrə müəyyənləşdirilmişdir: *xalçaçılıq məmulatı; tekstil-geyim;cini-saxsı və şüşə məmulatı; zərgərlik məmulatı; dəri-ayaqqabı;* qismən *mebel avadanlığı; suvenir məmulatı* və digər məhsullar.

Tarixi materiallar üzrə araşdırmalar göstərir ki, XX əsrin əvvəllərindən təşəkkül tapan sənaye dizaynı əvvəlki dövrlərldə daha da çoxşaxəli formada inkişafda olmuşdur. Bu yaradıcılıq sahəsinin sonrakı – 1970-1980-ci illərdəki inkişaf mərhələləri respublikada ümumsosial iqtisadi inkişafla əlaqədar daha da zənginləşmiş və artıq sənaye üzrə ümumi gəlirə xeyli təsir göstərmişdir.

Azərbaycanda toxuculuq sahəsini inkişaf etdirən iri müəssisələrdən biri – məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev tərəfindən əsası 1897-ci ildə qoyulan "Tağıyev Qafqaz Səhmdar Cəmiyyətinin lifli

---

[27]Əsədova S.D. XIX-XX əsrlərdə Azərbaycan zərgərlik incəsənəti. Bakı, "Elm", 1978, s.49

[28]Salamzadə Ə.R., İsmayılov M.Ə., Məmmədzadə K.M. Şəki. Bakı, "Elm", 1988, s.43

[29]Kərimov K., Əfəndiyev R., Rzayev N., Həbibov N. Azərbaycan incəsənəti. Monoqrafiya. Bakı, "İşıq", 1992, s.311

məmulatlar emal edən fabriki" olmuşdur. Sonralar bu fabrik genişləndirilərək ən iri istehsal müəssisələrindən birinə çevrilmişdir. 1975-ci ildə fabrik - 5164 ton iplik, 35347 t cod parça və 114467 t hazır parça istehsal edərək, yüksək iqtisadi gəlir əldə etmişdir. [30]

Əsası hələ 1827-ci ildə qoyulan Nuxa (Şəki) İpəkçilik Manufakturası Cəmiyyəti bir qədər sonra – 1829-cu ildə Xanabad İpək Müəssisəsi kimi fəaliyyətə başlamışdır. Sovet dönəmində tekstil üzrə ən güclü sənaye kombinatına çevrilən bu müəssisədə 1986-cı ildə 37,2 milyon manatlıq ipək parça istehsal edilmişdir ki, bu da keçmiş SSRİ-də təbii ipək parça istehsalının 19%-ni təşkil edirdi.[31] Təbii ki, göstərilən faiz ölkəyə müəyyən qədər iqtisadi gəlir gətirmişdir.

Respublikamızda ən böyük istehsal müəssisələrindən biri də 1922-ci ildə xırda tikiş emalatxanaları əsasında yaradılmış "Azərpaltar" adlı Bakı Tikiş Fabriki olmuşdur. 1975-ci ildə bu müəssisədə müxtəlif növ və çeşiddən olan geyim nümunələri istehsal edilmişdir [32].

1970-1980-ci illərdə sənaye dizaynı üzrə əsas inkişaf edən sahələrdən biri əvvəlki dövrlərdə olduğu kimi, xalça və xalçaçılıq məmulatlarının istehsalı ilə səciyyəvi olmuşdur. Bu dövrdə xalçaçılıq sənayesinin inkişafında Gəncə Xalça-Mahud Kombinatının nailiyyətləri xüsusi ilə diqqəti cəlb edir. Müəssisənin tarixində ən maraqlı hadisələrdən biri 1976-cı ildə Ümumittifaq Sosializm yarışının keçici Qırmızı Bayraqlarından birinin o dövrdə Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd olan, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin təqdim etməsi ilə əlaqədar olmuşdur.

1972-ci ildə ADR-in Leypsiq şəhərində təşkil olunmuş sərgidə[33] 1981-ci ildə YUNESKO-nun Parisdəki mənzil qərargahında keçirilən "Azərbaycan xalçaları" sərgisində[34], 1983-1988-ci illərdə Bakıda keçirilən Şərq xalça sənəti üzrə və II Beynəlxalq simpoziumlarında,[35] eləcə də, 1985-88-ci illərdə Hollandiya, İspaniya, İtaliya, Finlandiyada

---

[30] Əliyev M.T. Azərbaycanın iqtisadiyyatı. Bakı, 1998, s.101-102

[31] Əliyev M.T. Azərbaycanın iqtisadiyyatı. Bakı, 1998, s.102

[32] Əliyev M.T. Azərbaycanın iqtisadiyyatı. Bakı, 1998, s. 102

[33] Müciri C. Azərbaycan xalçaçılığı (Azərbaycan xalçaçılığının texnoloji üsulları). Bakı, "Azərnəşr", 1977, 6

[34] Müasir Azərbaycan memarlığı və incəsənəti. K.Kərimovun və Ş.Fətullayevin redaktəsi ilə.Bakı, "Elm", 1992, s.114

[35] Kərimov K., Əfəndiyev R., Rzayev N., Həbibov N. Azərbaycan incəsənəti. Monoqrafiya. Bakı, "İşıq", 1992, s. 318

“Azərbaycan dekorativ-tətbiqi sənətləri” sərgisində[36] xalqımızın həyat və məişəti ilə bağlı olan bu sənət növü müvəffəqiyyətlə nümayiş etdirilmişdir.

Azərbaycanda xalçaçılıq sənətinin bədii məzmun və texnoloji cəhətdən daha da inkişaf etdirilməsində görkəmli rəssamlar L.Kərimov, K.Əliyev, A.İsmayılov və digər sənətçi-mütəxəssislər müvəffəqiyyətlə fəaliyyət göstərirdilər.

1970-ci illərdə sənaye dizaynının inkişafında aparıcı yerlərdən birini bədii şüşə məmulatlarının istehsalı tuturdu. Bu sahədə istehsal əsas etibarilə Bakı Şüşə Zavodunda həyata keçirilirdi.

Respublikamızda sənaye dizaynının formalaşması və inkişafında təhlil edilən dövr üzrə müxtəlif sahələrlə yanaşı, Bakı Zərgərlik Zavodunun fəaliyyətinin də müəyyən rolu olmuşdur. Zavodun zərgərlik məhsulları 1973-1974-cü illərdə təşkil olunmuş Moskva, Leypsiq, Paris yarmarkalarında xüsusi maraq və rəğbətlə qarşılanmışdır

1970-ci illər Azərbaycan sənaye dizaynının inkişaf istiqamətlərindən birini də dəri-ayaqqabı istehsalı təşkil edirdi.

Beləliklə, Azərbaycanda sənayenin müxtəlif dövrlər üzrə inkişaf dinamikasının müqayisəli təhlili bu inkişafın 1940-cı ilə nisbətən 1960-cı ildə 2,8, 1970-ci ildə 5,5, 1980-cı ildə isə 12,1 dəfə artmasını göstərir.[37] Bu da öz növbəsində sənayenin müxtəlif sahələrində təbii proses, qanunauyğunluq kimi sənaye dizaynının inkişafına müəyyən təsir göstərmişdir. Stastik göstəricilərə görə,1970-1980-cı illərdə istehsal 2,2 dəfə artmışdır.[38]

Nəticə etibarı ilə respublikada sənaye dizaynının inkişafı III mərhələdə əsasən, aşağıdakı sahələr üzrə müəyyənləşdirilmişdir: *xalçaçılıq məmulatı; tekstil-geyim; cini-saxsı və şüşə məmulatı; zərgərlik məmulatı; xəz, dəri-ayaqqabı; məişət avadanlıqları; suvenir məmulatı;* qismən *bədii qablaşdırma; mebel avadanlığı* və digər məhsullar.

Həmin dövrdə istehsal olunan “BK-1500” məişət kondisionerləri, “Çinar” soyuducuları, “Xəzər” radioqəbulediciləri və s. adda məmulat və mallar nəinki ölkəmizdə, eləcə də keçmiş sovet respublikalarında özlərinin funksionallıq, keyfiyyət və yüksək dizayn göstəricilərinə görə tanınırdı. “Çinar” soyuducuları hazırkı dövrdə də istehsal edilir və əsasən

---

[36] Müasir Azərbaycan memarlığı və incəsənəti. K.Kərimovun və Ş.Fətullayevin redaktəsi ilə.Bakı, “Elm”, 1992, s.114

[37] Hüseynov T.Ə. Sənayenin iqtisadiyyatı. Bakı, “Azərnəşr”, 2000, s.37

[38] Hüseynov T.Ə. Sənayenin iqtisadiyyatı. Bakı, “Azərnəşr”, 2000, s.38

yerli mağazalarda satılır.

**“Bədii-texniki layihələndirmə və konstruksiyaetmə”** adlanan **IV fəsildə** bədii-texniki layihələndirmə və konstruksiyaetmənin məqsəd, vəzifə və metodları, həmçinin respubilikada bu fəaliyyət sahəsinin tarixi inkişaf mərhələləri tədqiq edilir.

Məlum olduğu kimi, dizayn yaradıcılıq fəaliyyəti hazırlanan məmulatın, qurğunun və yaxud yaradılacaq hər hansı bir obyektin bədii-texniki layihələndirmə prosesini həyata keçirir. Qeyd etmək lazımdır ki, dizayn-layihələndirmədəki bədii yanaşmadan fərqli olaraq, layihələndirmədən ayrıca fəaliyyət sahəsi kimi mühəndis-texniki, memarlıq-inşaat və s. işlərin reallaşdırılmasında geniş şəkildə istifadə edilir.

İndiyədək layihələndirmənin müəyyənləşdirilməsi və izahı ilə əlaqədar müxtəlif fikirlər irəli sürülmüşdür. [39]

Bizim fikrimizcə, layihələndirmə yaradıcı fəaliyyət üzrə intuisiya aktına və ən mükəmməl təfəkkür əməliyyatlarına əsaslanan hər hansı bir ideya-məzmunun reallaşdırılması, təqdim edilməsi kimi xarakterizə edilə bilər.

Layihələndirmənin məqsədi *insan - əşya - maşın - mühit* sistemlərində müasir dövrün tələb və ehtiyaclarından irəli gələn problemlərin həllindən, o cümlədən məmulat, qurğu və avadanlıqların yeniləşdirilməsi, təkmilləşdirilməsinin daha optimal həlli variantlarının tapılmasından və reallaşdırılmasından ibarətdir.

Müasir dövrdə əşya və avadanlıqların yaradılmasında bazarın tənzimlədiyi kompleks tələblər mühüm amillərdən biri kimi əhəmiyyət kəsb edir. Onları aşağıdakı kimi qeyd etmək olar:

- daha çox tələbat olan məhsulların istehsalının üstünlüyü;
- sifarişə əsaslanan mallar;
- məmulatın bir neçə funksiyanı yerinə yetirməsi;
- birdəfəlik istifadə üçün nəzərdə tutulan əşyaların istehsalının üstünlüyü;
- məmulatın hazırlanmasında minimum xammal sərfi;
- realizə məkanının daha geniş olması;
- rəqabətə davamlılıq;

[39] Джонс Дж.К. Инженерное и художественное конструирование. Москва, «Мир»,1976, с. 21

- erqoestetik faktorlar;
- ekoloji və gigiyenik tələblər üzrə beynəlxalq standartlara uyğunluq və s.

Sənaye obyektlərinin, eləcə də sənayedə istehsal edilən məmulatlar və avadanlıqların yaradılması konstruktor-layihəçilərin – dizaynerlərin eskiz-çertyojlarına, layihələrinə, o cümlədən, bədii layihələrinə əsaslanır.

Qeyd etmək lazımdır ki, memarlıq-layihələndirmə işləri üçün ayrıca geniş proqramlar mövcuddur. Məsələn, *Auto CAD, Archi CAD* və s. Lakin mühəndis-konstruktor işlərində bir, yaxud iki detalın çəkilməsi üçün bu mürəkkəb proqramları kompüterə yükləməyə, ondan istifadə etməyə elə də ehtiyac yoxdur. Və həmin proqramlarla yalnız xüsusi kurs keçmiş mütəxəssislər işləyə bilir. Təklif etdiyimiz "Çertyoj simvolları – şərti işarələr" bölməsi sistem şəklində, məsələn, *Corel Draw, Microsoft Word* proqramına əlavə edilsə, bu simvollardan həm mühəndis-layihələndirmə, həm digər qrafik işlərdə, həm də tədris prosesində kütləvi şəkildə istifadə edilə bilər.

Azərbaycan sənaye dizaynının inkişaf dövrlərindən danışarkən, özünün məhsuldar yaradıcılıq fəaliyyəti ilə respublika dizayn tarixində silinməz iz qoymuş Xüsusi Bədii Konstruksiyaetmə Bürosunun mərhələvi fəaliyyətini xüsusi araşdırmaq, təhlil etmək lazım gəlir.

Xüsusi Bədii Konstruksiyaetmə Bürosu Azərbaycan SSR Xalq Təsərrüfatı Şurasının 7 may 1963-cü il 355 saylı qərarı ilə yaradılmış, həmin ilin avqust ayından etibarən fəaliyyətə başlamışdır. [40]

Büronun fəaliyyəti nəticəsində sənaye estetikası, bədii konstruksiyaetmə sahəsində artıq müəyyən irəliləyişlər vardı. Büroda çalışan memarlar, mühəndislər, rəssamlar, konstruktorlar, həkimlər və fizioloqlar zavod və fabriklərdə eksteryer və interyerlərin bədii-estetik cəhətdən təşkili, həmçinin maşın, qurğu və avadanlıqların yeni konstruksiyalar əsasında yaradılması, ümumiyyətlə, istehsalatda iş şəraitinin optimallaşdırılması məsələlərini həll edirdilər.[41]

1978-ci ildə Respublika Nazirlər Kabinetinin qaldırdığı vəsatət əsasında keçmiş SSRİ Nazirlər Kabinetinin qərarına əsasən XBKB ÜTEETİ-nin Azərbaycan filialı kimi fəaliyyət göstərmişdir.[42]

---

[40]Рагимзаде Ю.Р. Художественное конструирование в Азербайджане // Труды ВНИИТЭ, Москва, №5, с.72

[41]Marksist - Leninçi estetikanın əsasları. Bakı, "Maarif", 1979, s.166-167

[42]Hacıyeva Y., Həsənov R. M. Dizaynın əsasları. "Giso enterprise", Bakı, 2005; "CBS Polygraphic Production", Bakı, 2008, s. 34

XBKB-nin fəaliyyəti vaxtilə Y.Rəhimzadə tərəfindən dörd mərhələ üzrə geniş təhlil olunaraq, Moskvada nəşr edilən ÜTEETİ-nin elmi toplusunda dərc etdirilmişdir. Həmin mərhələləri yığcam şəkildə aşağıdakı ardıcıllıqla diqqətə çatdırırıq.[43]

Birinci mərhələ (1963-1965-ci illər) – XBKB-nin yaradıcılıq mövqeyinin müəyyənləşdirilməsi kimi diqqətə çatdırılır.

İkinci mərhələ (1966-1967-ci illər) – ilk növbədə, təşkilati dəyişikliklərlə xarakterizə edilir.

Üçüncü mərhələ (1968-1971-ci illər) – XBKB əsasən, xalq istehlakı malları və suvenirlərin bədii konstruksiyaedilməsi istiqamətində fəaliyyət göstərmişdir.

1972-1973-cü illərdə XBKB-də yenidən struktur dəyişikliyi baş verir: maşın və cihazların bədii konstruksiyaedilmə bölməsi bərpa edilir; müstəqil bölmə kimi erqonomika bölməsi ayrılır; sənaye mallarının tələbat xüsusiyyətlərini öyrənən şöbə təşkil edilir.

Beləliklə, araşdırmalar deməyə əsas verir ki, XBKB-nin respublikanın aparıcı sənaye sahələrinə yönəlmiş layihələndirmə fəaliyyəti həmin dövrlər üçün xeyli məhsuldar olmuşdur.

1980-ci ildə filial “Xalq istehlakı mallarının istehlak keyfiyyətinin təkmilləşdirilməsi problemləri” mövzusunda elmi-praktiki konfrans keçirmişdir.

ÜTEETİ-nin xətti ilə 1983-cü ildə Bakıda geniş əməkdaşlıq şəraitində təşkil edilən "İnterdizayn-83" adlı xüsusi beynəlxalq layihələndirmə seminarında elmi-praktik, bədii-estetik, ictimai-sosial aspektlərdə aparılan təcrübə mübadiləsi, öz dövründə respublikada dizayn yaradıcılığı üzrə qazanılan nailiyyətlər kimi səciyyələndirilə bilər. Sayca 15-ci olan beynəlxalq əhəmiyyətli bu seminarın Bakıda keçirilməsi artıq respublikada peşəkar səviyyəli kadr potensialının, eləcə də dizayn sahəsində müəyyən təcrübənin əldə edilməsini bir daha təsdiq edirdi. 2 həftə (4-18 oktyabr) davam edən seminarda 24 mütəxəssis (14 - SSRİ, 2 - Macarıstan, 2 - ADR, 2 - Çexoslovakiya, 4 – Yaponiya) iştirak etmişdir. Seminarın işinə Baş institutun direktoru Y.B.Solovyov, filialın direktoru R.M.Həsənov və digər mütəxəssislər rəhbərlik edirdilər. Seminarda müxtəlif millətlərin nümayəndələri ilə yanaşı, Azərbaycan sənətçilərindən, dizayner-mütəxəssislərindən Şahin Ələsgərov, Koqan Vadim, Kamal Muradov, Aleksandr Putnikov, Sənan Salamzadə və

[43] Рагимзаде Ю.Р. Художественное конструирование в Азербайджане //Труды ВНИИТЭ, Москва, №5, с.72-73

Rəhim Seyfullayev iştirak etmişlər.

1989-cu ildə isə “Obraz mühitin təşkil olunması meyarı kimi” Respublika Elmi konfransı keçirilmişdir.

1990-cı illərdə həmin elmi-tədqiqat müəssisəsi öz işini yeniləşdirərək davam etdirmişdir. Dizayn-metodik mərkəzi kimi, müəssisənin fəaliyyəti əsasən aşağıda göstərilən iş istiqamətlərini əhatə edirdi:

- respublika müəssisələrinin sənaye mallarının ekspert keyfiyyət qiyməti;
- məmulatların perspektiv nümunələrinin işlənməsi;
- müəssisə və istehsalçılara, dizaynerlərə metodik və məlumatlandırıcı kömək;
- dizayner-mütəxəssislərin ixtisasartırma kurslarını təşkil etmək.

Beləliklə, XBKB-nin – ÜTEETİ-nin Bakı filialının mərhələvi fəaliyyəti Azərbaycanda texniki estetika və dizayn yaradıcılığının inkişaf tarixində xüsusi əhəmiyyət kəsb edərək, onun zənginləşməsində və sonrakı inkişafında önəmli rol oynamışdır.

1960-cı illərdə bədii konstruksiyaetmənin intensiv inkişafında tətbiqi qrafikada dizayn yanaşma, əsasən, sənaye qrafikasında (məmulatların üzərində qrafik elementlərdə) və qablaşdırmada öz əksini tapmışdır. 1960-cı illərin sonu, 1970-ci illərin əvvəllərində bu proses özünün yüksək inkişaf mərhələsinə çatır. Vizual kommunikasiya kimi xarakterizə edilən nəzəri konsepsiya semiotikanın bazası əsasında, sosial-texniki kontekstdə informasiya nəzəriyyəsinə əsasən formalaşmağa başlayır.[44]

Sənaye qrafikası, əsasən, müxtəlif qəbildən olan istehlak mallarında, onların qablaşdırılmasında bədii tərtibat, informasiya və reklam məqsədi ilə tətbiq edilir.

Müasir dövrdə respublikada sənayenin inkişaf tempinin artması ilə əlaqədar olaraq sənaye dizaynı, o cümlədən sənaye qrafikası,qrafik dizayn üzrə yaradıcılıq imkanları xeyli zənginləşmişdir. Bu sahədə fəaliyyət göstərən peşəkar mütəxəssislərdən olan, əməkdar incəsənət xadimi, professor Arif Əzizin adını xüsusi qeyd etmək lazımdır. O, Azərbaycanda bir çox firma nişanlarını, eləcə də təşkilat, sərgi, yubiley emblemlərini, ekslibrisləri hazırlamışdır. A.Əziz respublikada keçirilən bir çox tədbirlərin reklam vasitələrinin bədii layihələrinin müəllifi

---

[44] Рунге В.Ф. История дизайна, науки и техники. Москва, «Архитектура-С», 2006,с.192

olmuşdur. O, eyni zamanda, rəngkarlıq, qrafika, dekorativ-tətbiqi sənət sahələrində də məhsuldar yaradıcılıq fəaliyyəti göstərmişdir. Bütün bunlarla yanaşı, A. Əziz sənət sahəsində uzun illər boyu qazandığı zəngin təcrübəni hazırda böyük həvəs və maraqla, xüsusi peşəkarlıqla Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində gənc nəslə – tələbələrə aşılamaqdadır.

İndiki dövrdə işarə-nümunələr sənaye dizaynının ümumi inkişafı ilə əlaqədar olaraq, bədii-estetik cəhətdən xeyli zənginləşdirilmiş, daha da lakonik formalara salınmışdır.

**V fəsil“Azərbaycan sənaye dizaynı yeni iqtisadi mərhələdə”** adlanır. Tədqiqatın bu fəsli respublikada müstəqillik illərində təşkil edilən və müasir dövrdə fəaliyyət göstərən istehsal sahələrinin işinə həsr olunub.

1991-ci ildə SSRİ-nin süqutundan sonra bir çox müttəfiq respublikalarda olduğu kimi, Azərbaycan Respublikasının da ictimai-siyasi həyatında əsaslı dəyişikliklər baş verdi. Ölkənin müttəfiq respublikalarla mövcud olmuş iqtisadi əlaqələrinin tədricən zəifləməsi və bəzi sahələrdə isə tam qırılması Bakı, Sumqayıt, Gəncə kimi iri şəhərlərdə fəaliyyət göstərən sənaye müəssisələrinin işində ciddi problemlər yaratdı. Təbii ki, istehsal fəaliyyəti ilə məşğul olan müəssisələrin işində yaranmış bu problemlər, istehsalın zəifləməsi və dayanması nəticə etibarilə respublikada sənaye dizaynının ümumi inkişafına öz mənfi təsirini göstərərək onu ləngitməyə başladı. Belə bir şəraitdə əhalinin mədəni-məişət mallarına olan tələbatı getdikcə artmaqda idi. Xarici bazarlara çıxış, geniş ticarət əlaqələri o dövrdə yetərincə formalaşmamışdı. Digər tərəfdən də müəssisələrin əksəriyyətinin fəaliyyətində yaranmış problemlər əhalinin alıcılıq qabiliyyətini aşağı salmışdı. Həmin dövrdə əhalinin sosial-mədəni tələbatı, əsasən, Çin, Koreya, İran, Türkiyə və s. ölkələrdən fərdi iş adamları tərəfindən gətirilən, o qədər də keyfiyyətli olmayan, pərakəndə şəkildə satılan mallar hesabına ödənilirdi. Geyim və xırda məişət əşyalarından fərqli olaraq, daha iri həcmli məmulatların, malların, məsələn, mebel dəstlərinin, minik avtomobillərinin kütləvi satışının təşkilində çətinliklər qalmaqda idi. Belə bir mürəkkəb, ziddiyyətli şəraitdə özəl sektorun fəaliyyətində müəyyən fəallaşma baş verdi. Bazarın öyrənilməsinə, əhalinin tələbatına əsasən, böyük istehsal gücündə olmasa da, kiçik, eləcə də orta istehsal gücünə malik olan müxtəlif təyinatlı müəssisələr, firmalar təsis edilərək fəaliyyətə başladılar.

1990-2000-ci illər Azərbaycan sənaye dizaynının inkişafı, eyni zamanda xarici dövlətlərdən respublikaya gələn iş adamları ilə ölkə

vətəndaşlarının birgə təşəbbüsləri ilə yaradılmış müştərək müəssisələrin istehsal fəaliyyəti ilə də əlaqədar olmuşdur.

Əsası 1992-ci ildə qoyulmuş, dizayn və mebellə təchizat sahəsində fəaliyyət göstərən "Müller İnteryer" şirkətlər qrupu, 1995-ci ildən mebel istehsalı üzrə fəaliyyət göstərən "İnterior design Co" kompaniyası və digər bu kimi müəssisələr respublikanın istehlak malları bazarında istehsal etdikləri mallarla özlərini kifayət qədər tanıda bilmişlər. "Müller İnteryer"in istehsalına məxsus olan mallar beynəlxalq tələblər səviyyəsində erqonomik və gigiyenik normalara cavab verdiyindən, onlar sertifikatla da təltif edilmişdir. Funksionallıq baxımından erqonomik tələblərə cavab verən kompüter masaları, bank sistemləri üçün mebellər, mehmanxana və s. mebelləri ciddi kontrast rənglərlə dekorasiya edilmiş, estetik tərtibata salınmışdır. Qeyd etmək lazımdır ki, bu firma öz istehsalı ilə yanaşı, xarici ölkələrin istehsalına aid olan müxtəlif təyinatlı mebellərin satışı ilə də məşğul olur.

Mebel dizaynı istiqamətindəki inkişafın, yaradıcılıq fəaliyyətinin nəticəsi kimi, 2004-cü ildə Bakı şəhərində H.Əliyev adına İdman-Konsert Kompleksində 2-ci Azərbaycan Beynəlxalq Mebel və Taxta emalı, İnteryer və Dizayn sərgisinin keçirilməsini qeyd etmək olar.[45]

Mebel istehsalı istiqamətində respublikada fəaliyyət göstərən – "İdeal dizayn", "İnterior design Co", "Maxi Dizayn", "Elit mebel", "Rövşən Oğuz Qrupu" və s. aparıcı müəssisələr tərəfindən hazırlanan mebel dəstləri həmin sərgidə ictimaiyyətə təqdim edilmişdir. Göstərilən firmaların fəaliyyət sahəsini, əsasən, eyni istiqamət –mebel emalı təşkil etsə də, hazırlanan nümunələrdə formayaranma özünü fərqli şəkildə büruzə verirdi.

Respublikamız müstəqillik əldə etdikdən sonra müxtəlif istehsal sahələrində baş verən dəyişikliklər tekstil-geyim sahəsinə də sirayət etdi və bu sahədə yeni islahatların aparılmasına ehtiyac yarandı. Vaxtilə Azərbaycanda yüngül sənaye mallarının, o cümlədən geyim nümunələrinin hazırlanmasında Bakıda Volodarski adına Tikiş Fabriki, Gəncədə, Sumqayıtda, Əli Bayramlıda (indiki Şirvan) və digər şəhərlərdə fəaliyyət göstərən tikiş fabriklərinin böyük rolu olmuşdur. Həmin müəssisələrin istehsal etdiyi mallar öz dövründə əhalinin tələbatını müəyyən səviyyədə ödəyirdi. XX əsrin əvvələrindən fəaliyyətə başlayaraq, respublikada geyim tələbatının ödənilməsində böyük rolu ol-

[45]II Azərbaycan Beynəlxalq Mebel və Taxta emalı, İnteryer və Dizayn Sərgisi. Rəsmi kataloq. Bakı, 2004, 49 s.

muş Volodarski adına Tikiş Fabrikinin adı müxtəlif vaxtlarda bir neçə dəfə dəyişdirilmişdir. Ədliyyə nazirliyinin 03.03.2000-ci il tarixli 101 saylı sərəncamına əsasən müəssisə "Bakı Tikiş Evi" Açıq Tipli Səhmdar Cəmiyyəti adlandırılmışdır və hazırda öz fəaliyyətini davam etdirir.

Geyim-moda dizaynından danışarkən 1988-ci ildən peşəkar modelyer kimi fəaliyyət göstərən Fəxriyyə Xələfovanın yaradıcılığı xüsusi qeyd edilməlidir. Onun "Sirr", "Neft ilahəsi", "Ays", "Ümid ritmləri" kimi moda kolleksiyaları Rusiya, Qazaxıstan, Gürcüstan, Belorus və Almaniyada uğurla nümayiş etdirilmişdir. F.Xələfova "EKSPO-2000" Ümumdünya sərgisində və bir sıra beynəlxalq moda müsabiqələrində münsiflər heyətinin üzvü və sədri olmuş, eləcə də beynəlxalq müsabiqələrdə diplom və mükafatlara layiq görülmüşdür.[46]

Qadın geyim kompleksinin tərkib hissəsi olan baş örpəyi kəlağayı Azərbaycanda, o cümlədən bir sıra Yaxın Şərq və Qafqaz xalqları arasında geniş yayılmışdır.[47] Sovet dövründə respublikada əsasən, yarımkustar üsulla hazırlanan kəlağayının istehsalı hazırda Şəki və Basqalda davam etdirilir.

İndiki şəraitdə respublikada xalçaçılıq üzrə fəaliyyət göstərən aparıcı müəssisələrdən biri də "Azər-İlmə" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Bu müəssisə Azərbaycan xalça sənəti ənənələrini yaşadır, inkişaf etdirir və bütün dünyada satışı vasitəsi ilə təbliğinə çalışır. "Azər–İlmə" 1994-cı ildə fəaliyyətə başlamışdır. Burada qədim ənənə ilə ən müasir texnologiyalar vəhdətində çeşidli xalçalar hazırlanır. "Azər-İlmə" MMC tərəfindən toxunulan Azərbaycan xalçaları 1997-ci ildə Amerika Birləşmiş Ştatlarının Atlanta, 1999-cu ildə Almaniyanın Hanover şəhərlərində, 2003-cü ildə isə Moskvada keçirilmiş satış sərgilərdə müvəffəqiyyətlə nümayiş etdirilmişdir. Burda istehsal edilən xalçalar ABŞ, Almaniya, Fransa, Türkiyə, Rusiya, Avstraliya, Yaponiya, İsveçrə, İtaliya, Norveç, Cənubi Afrika və dünyanın digər ölkələrində, şəxsi kolleksiyalarda yer almışdır.[48]

Azərbaycan xalqının əsrlər boyu sevə-sevə yaşatdığı və inkişaf etdirdiyi bu qədim sənət növünün təbliği istiqamətində həyata keçirilən ən möhtəşəm işlərdən biri də Respublika Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan Xalça Muzeyinin yeni binasının tikilərək 2014-cü ildə istifadəyə verilməsi oldu. Müasir memarlıq

[46]1968,c. 14 http://az.wikipedia.org/wiki/Fəxriyyə_Xələfova
[47]Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə. V cild. Bakı, 1981, 533 s.
[48]http://www.azerilme.az/en/index1.php

quruluşunda olan bu binada çoxçeşidli muzey eksponatlarının nümayiş etirilməsi, həmçinin müxtəlif tədbirlərin keçirilməsi üçün əlverişli şərait yaradılmışdır.

Muzeyin yen binada təşkilində tanınmış xalça mütəxəssisi, sənətşünaslıq üzrə elmlər doktoru, professor Röya Tağıyevanın böyük əməyi olmuşdur.

Respublikada bədii məmulatların istehsalı üzrə fəaliyyətdə "Bakı Suvenir Məmulatları İstehsalı" MMC, "Hədiyyələr" ASC də təmsil olunurlar.

1990-cı illərdə respublikada özəl sektorun fəaliyyəti və inkişafı ayaqqabı istehsalına da sirayət etdi və 4 saylı Bakı Ayaqqabı Fabrikinin bazası əsasında 1998-ci ildə "BOT" Məhdud Məsuliyyətli Cəmiyyəti yaradıldı. Müəssisə Azərbaycan Respublikasında ayaqqabı istehsalı sahəsində aparıcı yerlərdən birini tutur.

Hazırda respublikada ayaqqabı istehsalı üzrə məhsuldar fəaliyyət göstərən müəssisələrdən biri də Bakının Yeni Suraxanı qəsəbəsində yerləşən "Daimoni" Məhdud Məsuliyyətli Cəmiyyətidir.[49]Bu müəssisə 2011-ci ildən fəaliyyətə başlamış və istehsal etdiyi çoxçeşidli nümunələri ilə həm respublika, həm də xarici ölkə bazarlarında özünü təsdiq edə bilmişdir.

Beləliklə müstəqillik illərində bazar iqtisadiyyatının tələblərinə əsasən, respublikada yeni istehsal sahələrinin yaradılması sənaye dizaynının inkişafına müəyyən təsir göstərmişdir. 2000-ci illərdən etibarən Gəncə, Naxçıvan şəhərlərində təşkil edilən avtomobil sənayesi milli dizaynın dünya dizayn yaradıcılığı ilə inteqrativ inkişafına sərit yaratmışdr.

Müxtəlif təyinatlı müəssisələrin təşkili ilə əlaqədar olaraq IV mərhələdə sənaye dizaynı əsasən, aşağıdakı istehsal istiqamətləri üzrə inkişafda olmuşdur: *mebel və taxta emalı; tekistil və geyim; dəri-ayaqqabı; müxtəlif məhsulların bədii qablaşdırılması;* qismən - *məişət əşya və avadanlıqları; suvenirlər; avtomobil sənayesi* və s. məhsullar.

**VI fəsil"Azərbaycanda dizayn yaradıcılığı və təhsilinin aktual problemləri"** adlanır. Fəsildə dizaynın sənət, elm və təhsil sistemində yeri, həmçinin onun göstərilən sahələrdəki aktual problemlərindən bəhs edilir.

Hər hansı bir xalq tərəfindən minilliklər boyu yaradılan maddi-mənəvi dəyərlər – memarlıq abidələri, geyim nümunələri, məişət əşya və

[49]http://shop.daimoni.com/about_us

avadanlıqları və s. həmin xalqa mənsub olan milli-etnik xüsusiyyətləri, estetik dünyagörüşünü, sənətkarlıq ənənəsini, məişət mədəniyyətini özündə təzahür etdirərək, xalqın milli dəyərlər sisteminin tərkib hissəsini daha da zənginləşdirmiş olur. Yuxarıda sadalanan xüsusiyyətlər xalq sənətkarları tərəfindən yaradılmış dekorativ-tətbiqi sənət nümunələrində özünü daha çox büruzə verir və əldə edilmiş maddi mədəniyyət nümunələri elə bu adla da eksponat qismində muzeylərdə yer alır. Dekorativ-tətbiqi sənət əşya və məmulatların utilitar tələblərindən əlavə, onların həm forma, həm də bəzək və naxış elementləri ilə tərtibata salınmasını təmin edərək, maddi mədəniyyət nümunələrində daha bir keyfiyyəti – dekorativliyi, estetik məzmunu, formanı reallaşdırır.

Müasir dövrdə daha çox praktik məqsədlərə xidmət edən dizayn yaradıcılığı milli-ənənəvi xüsusiyyətləri özündə ehtiva etməklə elmi-erqonomik, texniki-estetik tələblər və müasirlik prinsipləri zəminində çoxsahəli növlər üzrə inkişaf etməkdədir. Bu yaradıcılığın əsas nəticəsini əvvəldə qeyd etdiyimiz kimi, vahid standarta əsaslanan konveyer üsullu istehsal təşkil edir ki, bu da, ilk öncə, öz əksini qrafik sənədlərdə, sonra isə praktik əşya və nümunələrdə tapır. Dizayn yaradıcılığında eskiz-nümunələrin hazırlanma ardıcıllığı son ədəbiyyatlarda əhatəli şərh edilir.[50]

Bununla belə, demək olmaz ki, bu gün dekorativ-tətbiqi sənət tənəzzül etməkdədir. Bu qədim sənət özünün minilliklərə söykənən ənənələri ilə müasir dövrümüzdə də fərdi sənətkarlığın timsalında ayrı-ayrı növlər üzrə inkişaf etməkdədir.

Dekorativ - tətbiqi sənət nümunələri, müəyyən mənada həm də etnodizaynın bəzi ənənəvi xüsusiyyətlərini özündə əks etdirir. Dizayn kustar sənətkarlıqdan, kiçik emalatxana və sex fəaliyyətindən başlamış, sonrakı mərhələdə isə kütləvi maşın texnologiyaları sistemlərinə əsaslanan istehsala keçid dövrünə kimi müəyyən təkamül yolu keçmişdir. Təbii ki, birinci mərhələdə hazırlanmış nümunələr, sırf dizayn yaradıcılığının məhsulu, nailiyyəti hesab edilə bilməzdi. Lakin bu nümunələrdə etnodizaynın bəhrələndiyi forma və dekor elementlərini, milli təcrübəyə süykənən bədii yaradıcılıq xüsusiyyətlərini də inkar etmək olmaz.

Nəhayət, dizayn özünün əsas mahiyyətini o halda təsdiq etmiş oldu ki, o artıq kustar sənətkarlıq deyil, beynəlxalq standartların

---

[50]http://the800.info/2009/06/01/industrial-designers-guide-sketching-strategic-use-sketching design-process.html

müəyyənləşdirdiyi normalara müvafiq olaraq, bədii-texniki layihələndirmə fəaliyyəti əsasında məmulat və avadanlıqların maşın texnologiyaları sistemlərində kütləvi (çoxtirajlı) istehsalını təmin etdi.

Hazırkı mərhələdə bu yaradıcılıq prosesində həm ənənəvi formalardan, həm də müasir formayaranma prinsiplərindən istifadə edilir. Bu mənada dizayn, demək olar ki, ibtidai sənətkarlıqdan müasir dövrümüzədək əşyanın, obyektin formayaranması kontekstində böyük təkamül yolu keçmiş və özünün bugünkü mövqeyini, statusunu müəyyənləşdirmişdir[51] (sxem2).




Sxem 2. Dizayn yaradıcılığının təkamül prosesi

Bu gün qlobal yaradıcılığa, elm və təhsilə çevrilmiş dizaynın bütün hallarda – sənət, elm, təhsil kimi daxili strukturuna, həmçinin regional əməkdaşlıq və təcrübə mübadiləsinə görə inteqrativ inkişafda olması birmənalıdır.

İnteqrativ struktur xüsusiyyətlərinə əsaslanan dizaynın geniş məzmunu sxemdə öz əksini tapmışdır (sxem 3).

[51] Гаджиев И.А. Этнодизайн: национальность, традиционность и современность // Культура народов причерноморья. Научный журнал. Симферополь, 2010, № 194, с.112-115.




Sxem 3. *Dizaynda inteqrasiyanın geniş məzmunu*

Hər hansı bir yaradıcılığın müəyyən inkişaf mərhələsindən sonra qanunauyğun proses olaraq, ətrafında ayrıca məktəb, o cümlədən təhsilin formalaşması şübhəsizdir. Bu mənada Azərbaycan sənaye dizaynı inkişaf edərək, milli və dünyəvi yaradıcılıq təcrübələri ilə zənginləşmiş, nəhayət məktəb səviyyəsinə çatmışdır. (sxem 4).




Sxem 4.Azərbaycan milli dizaynının formalaşma prosesi

Sxemdən göründüyü kimi, Azərbaycanda dizayn yaradıcılığı üzrə milli təcrübənin formalaşması və inkişafında Qərb təcrübəsi, texnologiyası ilə yanaşı, Rusiya təcrübəsi və texnologiyasının da müəyyən təsiri olmuşdur. Belə ki, XX əsrin əvvəlində Rusiyanın özündə artıq müəyyən təcrübə və texnologiya mövcud idi.[52] Bu da həm ölkənin özündə, qismən də qonşu ölkələrdə dizayn yaradıcılığının inkişafına müəyyən təsir göstərdi. O dövr Rusiyanın qonşu ölkələrlə, həmçinin Azərbaycanla mədəni-iqtisadi münasibətləri qarşılıqlı əməkdaşlıq şəraitində inkişaf etməkdə idi.

---

[52]Ковешникова Н.А. Дизайн: история и теория. Москва, «Омега-Л», 2007, 224 с., илл.

Azərbaycanda sovet dövründə formalaşan dizayn təhsili ilk dəfə keçmiş M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunda (indiki ADMİU) təşkil edilmişdir. Müasir dövrdə bu təhsil istiqaməti respublikanın müvafiq ali məktəblərində – Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında, Azərbaycan Memarlıq və İnşaat Universitetində, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, Qərb Universitetində ixtisaslı mütəxəssis hazırlığı işi ilə əlaqədar həyata keçirilir.

Cəmiyyətin ümumi inkişaf qanunauyğunluqlarına əsasən təhsil sisteminin müasirləşdirilməsi, o cümlədən həmin sahədə yeni islahatların aparılması daim diqqət mərkəzində olmalıdır. Bu mənada bir neçə ali məktəbdə dizayn ixtisasının mövcud olmasını nəzərə alaraq, təhsil sahəsində aparılan islahatlara əsasən dizaynın tədrisi üzrə müasir tədris-metodik və həmçinin digər vəsaitlərin hazırlanmasına ciddi səy göstərilməlidir.

**Nəticədə** tədqiqatın yekunları təqdim edilir, təklif və tövsiyələr verilir:

1. Azərbaycan incəsənətinin ayrılmaz tərkib hissəsi olan sənaye dizaynı XX əsrin əvvəllərdən etibarən mərhələlər üzrə formalaşaraq respublikanın sosial-mədəni, sosial-iqtisadi həyatında mühüm rol oynamış, bədii və texniki mədəniyyətin inkişafına əsaslı təsir göstərmişdir. Tədqiqat işində həmin mərhələlər sistemli şəkildə dörd dövr üzrə təsnifatlaşdırılaraq əsas istehsal istiqamətləri müəyyənləşdirilmiş və bu sahələrdə sənaye dizaynının rolu əsaslandırılmışdır.

2. Müxtəlif ictimai-siyasi dövrlərin sosial-iqtisadi, sosial-mədəni qanunauyğunluqları və tələbləri ilə əlaqədar inkişafda olan sənaye dizaynı istehlak mallarının bədii-estetik keyfiyyətinin yüksəldilməsində, həmçinin onların utilitar - funksional göstəricilərinin daha da effektli təmin olunmasında mühüm əhəmiyyət kəsb etmişdir.

3. Bədii istehsal sahəsinə aid olan məhsullar müxtəlif vaxtlarda keçirilən respublika və beynəlxalq əhəmiyyətli sərgilərdə ölkəmizi layiqincə təmsil etmiş, onun bədii və texniki mədəniyyətinin, sənaye incəsənətinin ümumdünya miqyasında təbliğ edilməsində və tanınmasında mühüm rol oynamışdır.

4. Bədii sənaye sahəsində istehsal edilən müxtəlif çeşidli məhsulların yeni dekor elementləri, bədii və estetik mahiyyət kəsb edən formalarla zənginləşdirilməsi əhalinin sosial-mədəni, eləcə də mənəvi

tələbatını ödəməklə, bütövlükdə milli məişət mədəniyyətini zənginləşdirmisdir.

5. Bəzi nümunələrin hazırlanmasında mütərəqqi metodların tətbiqi ilə yanaşı, milli-ənənəvi təcrübələrin istifadəsinə də geniş yer verilmişdir ki, bu da sənaye dizaynında milli yaradıcılıq xüsusiyyətlərinin müasirliklə sintezi kimi dəyərləndirilməlidir.

6. Respublikada öz dövründə texniki estetika, bədii kostruksiyaetmə işinin yüksək inkişaf səviyyəsinə çatması XBKB-nin, eləcə də ÜİTEETİ-nin məhsuldar fəaliyyəti, bu qurumda çalışan mütəxəssislərin peşəkar yaradıcılıq imkanları ilə reallaşmışdır.

7.Yeni yaradılan çoxçeşidli istehlak mallarının dizaynında erqonomik problemlərin və estetik amillərin müxtəlif prototiplər üzrə kompleks şəkildə müqayisəli təhlili onların utilitar-funksional imkanları və estetik səviyyəsinin daha da yüksəldilməsində səmərəli nəticələr verə bilər.

8.Vaxtilə respublikada bədii istehsal müəssisələrinin fəaliyyəti ilə əlaqədar inkişafda olmuş sənaye dizaynı müasir mərhələdə bazar iqtisadiyyatının tələb və qanunauyğunluqları əsasında yeni istehsal sahələrinin təşkili, həmçinin mövcud istehsal sahələrinin daha da təkmilləşdirilməsi ilə inkişaf etdirilə bilər.

9. Respublikada peşəkar kadr hazırlığı işinin daha da səmərəli təşkili dizayn təhsili üzrə müvafiq ali təhsil müəssisələrinin elmi bazasının gücləndirilməsi, təlimdə ənənəvilik və müasirlik prinsiplərinin nəzərə alınması, milli zəmində Qərb təhsil sisteminə inteqrasiya, həmçinin beynəlxalq səviyyədə elmi əməkdaşlığın və təcrübə mübadiləsinin intensivləşdirilməsi ilə reallaşdırıla bilər.

**Dissertasiyanın mövzusu üzrə müəllifin aşağıdakı məqalələri dərc olunmuşdur:**

1. Plakat dizaynı // Azərbaycan Müəllimlər İnstitutu Sumqayıt filialı, Elmi məqalələr toplusu, III buraxılış. Bakı, “Elm”, 2005, s. 101-104

2.Təlimin digər təşkili formaları-vizual mədəniyyət // Azərbaycan Müəllimlər İnstitutunun Sumqayıt filialı, Elmi məqalələr toplusu. IV buraxılış. Bakı, “Elm”, 2006, s. 145-148

3.Azərbaycanda dizayn təhsili: tarixi inkişaf mərhələləri, mövcud vəziyyət və perspektivlər // Mədəni-maarif, elmi-metodik, publisist jurnal. Bakı, 2006, №5 (183), s. 39-41

4.Dizayn təhsilində ənənəvilik və müasirlik prinsipi // “Mədəniyyət

dünyası” elmi-nəzəri məcmuə, XII buraxılış. Bakı, ADMİU – nun nəşriyyatı. 2006, s.409-412

5.XX əsrin əvvəlləri Azərbaycanda sənaye dizaynının formalaşması və inkişafı // AMEA Mİİ, İncəsənət və mədəniyyətin problemləri. Bakı, “Səda”, 2007, №2-3 (20-21), s. 100-106

6.Sənaye incəsənətin tarixi təşəkkülü // “Qobustan” sənət toplusu. Bakı, 2007, №1/137s. 44-48

7.Azərbaycanda sənaye dizaynının inkişaf mərhələləri: 1970 - 80-cı illər // AMEA Mİİ, İncəsənət və mədəniyyətin problemləri. Bakı, 2008, №2 (24), s. 254-260

8.Azərbaycanda sənaye dizaynının inkişaf mərhələləri: 1950-60-cı illər // “Qobustan” sənət toplusu. Bakı, 2008, №2/142, s. 90-93

9.Dəyərlərin inteqrasiyası: dizayn, sənət, elm və təhsil sistemində // AMEA Mİİ, İncəsənət və mədəniyyətin problemləri. Bakı, “Təknur”, 2008, №1 (23), s. 23-28

10.Dizayn yaradıcılığında təfəkkürün rolu // “Mədəniyyət dünyası”elmi-nəzəri jurnal, XV buraxılış. Bakı, ADMİU-nun nəşriyyatı. 2008, s. 219-227

11.Sənaye qrafikası // AMEA Mİİ, İncəsənət və mədəniyyət problemləri. Bakı, “Təknur”, 2009, № 1-2 (27-28), s. 342-347

12.Industrial design: the optimization of colours according to ergonomic factors // Universe of Culture.“Kültür evreni”, Ankara, 2009, № 3, p. 174-178

13. Some problems in the projection in the application of computer according to engineer graphic art and their solution ways // Universe of Culture. “Kültür evreni”, Ankara, 2009, № 4, p. 382-387

14.Цветоведение: исторические источники, суждения и предложения // Наука: 21 век. Саратов, 2009, № 4, с 80-85

15. Роль частных предприятий в развитии промышленного дизайна Азербайджана // НАНА ИАИ, Проблемы искусства и культуры. Межд. научный журнал. Баку, “Текнур”, 2009, № 4, (30), с. 110-116

16.Azərbaycanda bədii konstruksiyaetmə işinin təşəkkülü // “Mədəniyyət dünyası” elmi nəzəri məcmuə, XIX buraxılış. Bakı, ADMİU-nun nəşriyyatı, 2010, s. 123-126

17. Dizayn təhsilində inteqrasiya problemi / AMEA Mİİ, FSHİ, Fəlsəfə və sənətşünaslıq: fənlərarası qarşılıqlı təhsilin metodologiyası. Beynəlxalq elmi konfransın materialları. Bakı, “Təknur”, 2010, s. 145-147

18. Ənənəvi sənətin müasir dizayn yaradıcılığında tətbiqi imkanları // Lətif Kərimov adına Azərbaycan xalçası və xalq tətbiqi sənət muzeyi. Təsviri və dekorativ-tətbiqi sənət məsələləri. Bakı, "Təknur", 2010, № 2-3 (4-5), s. 118-128

19. XX əsrin ortalarından Azərbaycanda sənayenin müxtəlif istiqamətlər üzrə inkişaf dinamikası: problemlər, mülahizə və təkliflər // AMEA Mİİ, İncəsənət və mədəniyyət problemləri. Bakı, "Təknur", № 3 (33), 2010, s. 159-166

20.Этнодизайн: национальность, радиционностьи современность // Культура народов причерноморья. Научный журнал. Симферополь, 2010, № 194, с. 112-115

21.Дизайн текстиля и одежды: традиция, проблемы и перспективы // Материалы ежегодного научно-популярного сборника статей «МЕРОС». Ташкент, 2010, с. 81-85

22.İnteqrativ kurrikulum: dizayn təhsilində inteqrasiya problemi // AMEA Mİİ İncəsənət və mədəniyyət problemləri. Bakı, "Təknur" 2011, № 1 (35), s 156

23.Искусство миниатюры: Традиционность и современность / Материалы межд. науч. конференции «Взаимосвязи культур Азербайджана и Узбекистана». Ташкент, 2011, НАНА ИАИ, Проблемы искусства и культуры. Межд. научный журнал. Баку, "Текнур", 2011, № 2 (36), с. 84-95

24. Роль нефтяной промышленности в развитии дизайна Азербайджана // «Поиск», научный журнал Минстерства Образования и Науки. Алматы, 2011, №2, с. 115-119

25.Azərbaycanda sənaye dizaynının təşəkkülü və inkişaf istiqamətləri. Monoqrafiya. Bakı, "Təknur", 2011,14ç.v. ill.

26. Şərq Miniatür sənətində kompozisiya quruluşunda forma və üslub xüsusiyyətləri. Monoqrafiya.Bakı, "Təknur", 2012. 88 s. ill.

27. Qərbi Avropada dizaynın inkişafı // AMEA Mİİ, İncəsənət və mədəniyyət problemləri. Bakı, "Təknur", 2012, № 3 (41), s. 69-75

28. Qloballaşma və inteqrasiya / ARTN, ADMİU, Qloballaşma şəraitində kulturoloji innovasiyalar və sosial mədəni inkişaf. Beynəlxalq konfransın materialları, Bakı, "Təknur", 2012, s. 21-23

29.Роль дизайна в условиях глобализации // Диалог цивилизаций в эпоху становления глобальной культуры. (Отв. ред. Н.А.Хренов) Государственный институт искусствознания, Министерства культуры РФ. Москва, ГИИ, 2013, с. 477-479

30.Визуальные информации как средство пропаганды / Российская академия наук, Уфимский научный центр. Материалы международной научно-практической конференции. ИИЯЛ. Уфа, 2013,с. 307-309

31. Formayaranma və onun dizaynda estetik ifadəsi // Lətif Kərimov adına Azərbaycan xalçası və xalq tətbiqi sənət muzeyi. Təsviri və dekorativ-tətbiqi sənət məsələləri. Bakı, "Təknur", 2013, № 2 (12), s. 67-75

32.Layihələndirmə: nəzəriyyə və metodologiya // "Mədəniyyət dünyası" elmi-nəzəri jurnal, XXVI buraxılış. Bakı,ADMİU-nun nəşriyyatı, 2013, s. 105-110.

33.Dizayn-layihələndirmədə erqoestetik faktorlar. AMEA-nın xəbərləri, (Humanitar elm. ser. № 1). Bakı, "Elm", 2014, s. 208-215

34. Декоративные мотивы в материально-культурных образцах: традиции и параллели / Российская академия наук, Уфимский научный центр, Институт истории, языка и литературы. Материалы VI Всероссийской тюркологической конференции «Урал-Алтай: через века в будущее». Уфа, ИИЯЛ,2014,-с. 289-291

35.Условные обозначения и символы в проектировании // Проблемы востоковедения. Научный журнал, Уфа, 2014 № 3 (65), с. 20-24

36.Azərbaycan sənaye dizaynı: dəri-ayaqqabı sənayesi // "Mədəniyyət dünyası" elmi-nəzəri jurnal, XXVII buraxılış. Bakı, ADMİU-nun nəşriyyatı, 2014, s. 77-83

37. Dizaynda təsnifatlaşdırma // Azərbaycan Xalçası Muzeyi. Təsviri və dekorativ-tətbiqi sənət məsələləri. Bakı, "Təknur", 2014, № 3-4 (15), s. 47-53

38.Mebel dizaynında material və rəng seçimi //Azərbaycan Xalçası Muzeyi. Təsviri və dekorativ-tətbiqi sənət məsələləri. Bakı, "Təknur", 2015, № 1-2(16) , s. 64-69

39.Azərbaycanda bədii istehsal sahələri:ənənəvə müasirlik //Azərbaycan XalçasıMuzeyi. Təsviri və dekorativ-tətbiqi sənət məsələləri. Bakı, "Təknur", 2015, № 2-3 (17) , s.

40. Ergonomics as the scientific bases of design // Design Journal. United Kingdom - England, BLOOMSBURY PUBLISHING PLC 1460-6925 1756-3062, European Academy of Design - Arts and Humanities Citation Index Thmson Reuters, Impakt-faktor: 1,98,2015,Vol18,Issue 4 p.102-119

41.The integration problem of Design art, Science & Education //

International Journal of Art & Design Education. ISSN: 1476-8070 UK.Thmson Reuters,2016,Vol 18, Issue 2 (nəşrə imzalanmışdır).

42.Intangible heritage: the traditions are continued / Institute for Socio Cultural Anthropology of Macedonia, "Terrorism, Migrations, Refugees-Contemporary Challanges on Cultural Identities, Heritage, Economy, Tourism and Media". IV International Conference Ohrid, Macedonia, 17-19 January, 2016 (nəşrdə)

43. Dizaynda erqoestetik amillər. Monoqrafiya. Bakı, 2016, 9 ç.v. ill. (az.və ingilis dillərində)

*Имаш Адыширин оглы Гаджиев*

# ЭТАПЫ РАЗВИТИЯ АЗЕРБАЙДЖАНСКОГО ПРОМЫШЛЕННОГО ДИЗАЙНА

## Резюме

Представленная диссертация посвященапроблеме формирования Азербайджанского промышленного дизайна и исследованию направлений развития в различные периоды. Исследование состоит из введения, шести глав, девятнадцати подглав, заключения, списка научной литературы и иллюстративного материала.

Во **введении** обосновываются актуальность темы, степень изученности проблемы, научно-методологические основы работы, объект и предмет, цель и задачи, определяются хронологические пределы, раскрываются научная новизна, практическая и теоретическая значимость.

**В первой главе** диссертации, озаглавленной как «История зарождения промышленного искусства», рассматривается проблема формирования дизайна в Западной Европе, последующие этапы его развития, возникновение новых для своей эпохи теорий в данной области, уделяется внимание зарождению теоретических взглядов и появлению первых публикаций о художественном промысле в Азербайджане, а также анализируется возникновение эргономики как научного направления и её значение в контексте научной базы дизайна.

**Вторая глава** –«Эргоэстетические проблемы дизайна» – посвящена исследованию тесной связи дизайна и эргономики. В качестве одного из основных факторов этих отраслей утверждается ведущая роль в сфере дизайна. В связи с этим на образцах различных изделий комплексно исследуются эргономические и эстетические проблемы. Наряду с этим дается классификация для целенаправленного использования в дизайне физических свойств и психологических особенностей цветов.

**В третьей главе**–«Зарождение азербайджанского промышленного дизайна и его развитие по разным периодам и направлениям» – проводится анализ утилитарно-функциональных и эстетических показателей художественных изделий массового производства благодаря деятельности сфер художественного производства, существовавших в республике в различные периоды; акцентируется внимание на продукции, представляющей материальную и духовную культуру Азербайджана на всемирных выставках, обозначаются их показатели, имевшие экономическое значение для страны.

**Четвертая глава** диссертационной работы называется «Художественно-техническое проектирование и конструирование». В ней анализируются история формирования, теоретические и методологические

аспекты проектирования и его значимая роль в дизайне. Исследуются этапы развития художественного конструирования в Азербайджане, а также художественно-эстетические особенности художественной упаковки. Рассматривается целостность композиции в эмблемах и логотипах, а также их эстетический уровень и визуальные эффекты. Вместе с этим прослеживаются возможности применения современных компьютерных программ в проектировании.

**В пятой главе** – «Азербайджанский промышленный дизайн на новом экономическом этапе» – даётся обзор деятельности производственных предприятий, созданных в годы независимости республики. Обращается внимание на то, как на предприятиях, работающих в современных условиях, при производстве продукции различного назначения изыскиваются решения вопросов дизайна. При этом рассматриваются вопросы соблюдения эргономических факторов, эстетических критериев, экологических и гигиенических требований, согласующихся с мировыми стандартами. В данной главе в контексте будущего развития индустрии уделяется внимание перспективам развития промышленного дизайна.

**Шестая глава** исследования – «Актуальные проблемы дизайна и его обучения в Азербайджане». В ней проанализированы возможности применения традиционного национального опыта в дизайне, наблюдаемом в сфере художественного творчества. Наряду с этим затрагиваются проблемы организации обучения дизайну, учитывающие уровень современных требований. Для более эффективной организации обучения дизайну особое внимание уделяется вопросам интеграции с соответствующими отраслями науки, комментируются интегративные методы, применяемые в учебном процессе.

В **заключении** диссертационной работы подводятся итоги исследования и даются предложения и рекомендации.

Диссертация завершается списком использованной научной литературы и иллюстративного материала.

*Imash Adishirin Hajiyev*

# THE DEVELOPMENT STAGES OF INDUSTRIAL DESIGN OF AZERBAIJAN

## Summary

The dissertation work dedicated to the investigation of development directions on different periods and the creation of industrial design of Azerbaijan. The investigation work consists of six chapters, nineteen paragraphs, conclusion, reference and illustrative materials.

In the introduction has based the urgency of the theme, also explained the working level of problem, the theoretical methodological basis of the work. Its objects and subjects, its purposes duties and clarified its scientific innovation and theoretical – practical importance.

**In the first chapter** named as “The historical creation of industrial art” talked about the creation of design in the Western Europe and its following stages and the theories which was the new in this sphere for its period also here has given attention to the creation of theoretic views about the design in Azerbaijan and the first scientific works. Here searched the creation of ergonomics as the scientific direction and its importance in the scientific basis of design.

**In the second chapter** named as “The ergo aesthetic problems in the design” has investigated the close relationship of ergonomics and aesthetics of design and its leading role in the design creativity as the main factors of these two spheres. Connected with this, in the samples of various wares has analyzed ergonomics and aesthetic problems in a complex form. Beside this, according to the physical properties and psychological peculiarities of colors has given the classification for its targeted utilization both in the art and in design.

**In the third chapter** named as “The creation of industrial design in Azerbaijan and its directions and development on different periods” has analyzed utilitarian, functional and aesthetic indicators of artistic wares, which produced in a mass form on the base of activity of artistic production sphere, existed in different periods in the republic. At the same time, here has given attention to the these products which played an important role in the propagation of the material and spiritual culture of Azerbaijan in the international exhibitions, including gave attention to its economic importance for our republic.

**In the fourth chapter** named as “The artistic and technical projecting and constructing” has investigated the historical creation, theoretical and methodological aspects, also its important role in the design. Here also searched the development period of artistic construction in Azerbaijan, also the artistic-aesthetic peculiarities of artistic packing.

In the emblems and logotypes has analyzed the completeness of composition, aesthetic level and visual effects. Beside those, looked through the applied opportunities of the modern computer program in the projecting.

**In the fifth chapter** named as “the industrial design of Azerbaijan in the economic stage” has investigated the activity of the new production institutions created in the independence years. In the design solution of different appointed products producing in the acting institutions under the modern condition looked through the ergonomic factors which consistent with the international standards, the aesthetic criteria, including ecologic and hygienic requirements, also gave attention to the development of perspectives of industrial design in the context of future development of industry.

**In the sixth chapter** named as “The design creativity in Azerbaijan and the urgent problems of education” has written about the importance of applied opportunities of national-traditional practices in the modern design activity existing in the artistic area.

Beside this, has touched to the organization problems of design education in the level of modern requirements. Here has given special attention to the integration issues on according scientific sphere connected with more effective organization of training of design and explained the integrative inclination methods in the education processes.

**In the conclusion**is generalized the totality of investigation and is given offers and recommendations.

The dissertation work has summed with the used scientific literatures and illustrative materials.

AMEA-nın mətbəəsində çap olunub.
Tiraj-100

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**АЗЕРБАЙДЖАНСКАЯ ГОСУДАРСТВЕННАЯ АКАДЕМИЯ ХУДОЖЕСТВ**

*На правах рукописи*

**ИМАШ АДЫШИРИН оглы ГАДЖИЕВ**

# ЭТАПЫ РАЗВИТИЯ АЗЕРБАЙДЖАНСКОГО ПРОМЫШЛЕННОГО ДИЗАЙНА

Специальность: 6217.01-Техническая эстетика и дизайн

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора науки по искусствоведения

**БАКУ-2016**